
YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

03 noyabr
2026-cı il,
çərşənbə axşamı
№ 201 (7268)
Qiyməti
60 qəpik



Milli azadlıqdan
şirin nemət yoxdur!

A.S. (Ante Skriptum)

İlham Əliyev: "Bizimlə bu gün hesablaşmayan sabah peşman olur"... Bəzən də heç sabahı gözləməyə ehtiyac qalmır!

Azərbaycan Prezidentinə təşəkkürlər...



Ölkəmizin təşkilata uğurlu sədrliyi və bu dövrdə həyata keçirilən mühüm regional layihələr yüksək dəyərləndirilib

Bax səh. 2

Milli gücün rəmzi - azərbaycançılıq ideologiyası

Bax səh. 3



Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib



Bax səh. 4-5



Bakı qlobal güc mərkəzləri ilə bir masada...

Bax səh. 3

Zəfər ayının 3-cü günü

Bax səh. 2

Ermənistan KTMT-dən qovulur?

Bax səh. 6


"OPEC+" qərarını dəyişmədi

Bax səh. 7



Dərinləşən böhran: yeni dünya nizamında köhnə yanaşmaların iflası

Bax səh. 7



Güclü Amerika naminə: Trampın siyasi kursu və konqres uğrunda mübarizə

Bax səh. 6

Azərbaycan Prezidentinə təşəkkürlər...

Ölkəmizin təşkilata uğurlu sədrliyi və bu dövrdə həyata keçirilən mühüm regional layihələr yüksək dəyərləndirilib



Azərbaycanın Türk Dövlətləri Təşkilatında (TDT) sədrlıyi uğurla başa çatıb. Bu günlərdə Ankarada baş tutan Türk Dövlətləri Təşkilatı Dövlət Başçıları Şurasının 13-cü Zirvə Görüşündə Azərbaycan quruma sədrliyi qardaş Türkiyəyə təhvil verib.

Tədbirdə respublikamızın sədrliyi dönəmində aktiv fəaliyyət göstərdiyinə xüsusi vurğu edilib. Natiqlər ölkəmizin üzv dövlərlər arasında inteqrasiyanın möhkəmlənməsinə, yeni əməkdaşlıq əlaqələrinin qurulmasına mühüm töhfələr verdiyini yüksək dəyərləndiriblər və belə səmərəli fəaliyyətə görə Prezident İlham Əliyevə dərin təşəkkür ifadə ediblər.

TDT-yə sədrliyi dönəmində Bakının önə çəkdiyi prioritetlər

Azərbaycan dünyada azsaylı ölkələrdəndir ki, müxtəlif beynəlxalq təşkilatlara onlardan kömək, yardım almaq naminə qoşulmur. Respublikamız bir qayda olaraq sıralarına qatıldığı təşkilatların işində yaxından iştirak etməklə həm onların fəaliyyətinə xüsusi dinamika gətirir, həm də bununla qlobal əməkdaşlığa öz töhfələrini verir. Azərbaycanın Qoşulmama Hərəkatına (QH) sədrliyi buna nümunədir. QH-na üzv dövlərtlər Azərbaycanın imkanlarını, yüksək məsuliyyət nümayiş etdirməsini və müəyyənləşdirdiyi gündəliyin kifayət qədər geniş əhatə dairəsinə malik olduğunu nəzərə almaqla ölkəmizin quruma sədrliyinin daha iki il uzadılmasına yekdilliklə səs veriblər.

Respublikamız həmçinin Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) də məhsuldar sədrlik həyata keçirib. Bunu nəzərə alan üzv dövlətlər bu günlərdə Bakıda baş tutan Zirvə Görüşündə böyük məmnuniyyətlə respublikamızın AQEM-ə sədrliyinin daha iki il uzadılmasını razılaşdırıblar.

Belə misallar çoxdur. Bunlar Azərbaycanın davrannışlarına görə beynəlxalq birliyin ölkəmizə və onun Liderinə artan inamını təzahür etdirir.

Azərbaycan TDT-yə də məhsuldar sədrlik reallaşdırıb. Ötən bir il ərzində "Regional sülh və təhlükəsizlik" prioriteti respublikamızın quruma sədrlik gündəliyinin mərkəzində dayanıb. Dünyada müharibələrin alovlandığı, münaqişələrin vüsət aldığı, təhlükəsizlik təhdidlərinin artdığı, beynəlxalq hüququn norma və prinsiplərinin pozulduğu hazırkı şəraitdə bu məsələnin aktuallığı heç vaxt olmadığı qədər artıb. Respublikamız Türk Dövlətləri Təşkilatı çərçivəsində sülh və təhlükəsizlik prioritetini önə çəkərkən ilk növbədə öz təcrübəsindən çıxış edib. Azərbaycan öz gücü ilə ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına nail olan, bununla da tarixi əsaləti və beynəlxalq hüququ təmin edən dövlətdir. Dünya praktikasından bəllidir ki, qalib dövlətlər müharibələrin məğlub tərəflərinə müəyyən şərtlər diqtə edirlər və imtiyazlar istəyirlər. Qalib Azərbaycan isə fərqli davranış ortaya qoydu - müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq əzmi nümayiş etdirdi. Bununla da respublikamızın yaratdığı reallıqlar Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq üçün fürsətlərə çevrildi. Məhz Azərbaycan tərəfindən irəli sürülmüş prinsiplər əsasında hazırlanmış sülh sazişi mətninin ötən il avqustun 8-də Vaşinqtonda paraflanması ilə regiona real sülh gəlib. Azərbaycan bir illik sədrliyi dönəmində öz təcrübəsini TDT üzərindən bütün dünyaya təşviq edib.

TDT çərçivəsində iqtisadi əməkdaşlığın genişləndirilməsi də Azərbaycanın quruma sədrliyi dönəminin əsas prioritetləri sırasında olub. Respublikamızın təşviq etdiyi Orta Dəhlizin inkişafı, Zəngəzur dəhlizinin (TRIPP marşrutu) reallaşdırılması, nəqliyyat bağlantılarının genişləndirilməsi, qarşılıqlı investisiyalar, birgə layihələrin icrası kimi məsələlər üzv dövlətlər arasında ticarət və sənaye sahələrində əməkdaşlıq üçün geniş perspektivlər açır.

Ölkəmiz sədrliyi dönəmində TDT-yə üzv dövlətlər arasında qarşılıqlı əlaqələrin intensivləşməsinə nail olub. O cümlədən Azərbaycanın sədrliyi çərçivəsində xarici işlər nazirlərinin, Təhlükəsizlik Şuraları katiblərinin və eləcə də müdafiə sənayesi qurumları rəhbərlərinin görüşləri baş tutub. Müdafiə sənayesi sahəsində 2027-ci il üçün Əməkdaşlıq Yol Xəritəsinin qəbul edilməsi də böyük uğurdur.



Azərbaycan Liderinin TDT-də artan nüfuzu

Məlum olduğu kimi, Azərbaycan Prezidenti İlham Əliyev iş qrafikinin çıx olması səbəbindən Ankarada baş tutan Zirvə Görüşünə qatıla bilməyib. Bununla belə, tədbirdə çıxış edən natiqlər dövlətimizin başçısına xüsusi təşəkkürlərini ifadə ediblər.

O cümlədən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Türk Dövlətləri Təşkilatı çərçivəsində münasibətlərin inkişafına verdiyi töhfəyə və türkdilli xalqlar arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib. "Təşkilata sədrliyi dövründə türk xalqları arasında qardaşlıq bağlarının möhkəmləndirilməsi və münasibətlərimizin yeni səviyyəyə yüksəldilməsi istiqamətində Azərbaycanın gördüyü mühüm işlərə görə Azərbaycan Prezidenti, hörmətli İlham Heydər oğlu Əliyevə minnətdarlığımı bildirirəm", - deyə Ş.Mirziyoyev qeyd edib.

Ankara Zirvə Görüşündə Qırğızıstan Prezidenti Sadır Japarov da çıxışında təşkilatdakı sədrlik missiyasını uğurla yerinə yetirən Azərbaycanın töhfəsini yüksək qiymətləndirib. Ölkəmizin səylərini vurğulayan Sadır Japarov bildirib ki, rəsmi Bakının sədrliyi dövründə təşkilat daxilində əməkdaşlığın inkişafına və birgə təşəbbüslərin inkişaf etdirilməsinə böyük əhəmiyyət verilib.

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev öz növbəsində TDT-nın 13-cü Zirvə Görüşündə Azərbaycanın təşkilata uğurlu sədrliyini və bu dövrdə həyata keçirilən mühüm regional layihələri yüksək dəyərləndirib. O, Qazaxıstan ilə Azərbaycan arasında Trans-Xəzər Fiber-Optik Rabitə Xəttinin açıldığını və digər türk dövlətlərinin də layihədə iştirak edə biləcəyini bildirib.

Ankarada baş tutan Zirvə Görüşündə TDT-yə üzv dövlətlərin liderlərinin Azərbaycan Prezidentinə minnətdarlıq ifadə etmələri təsadüfi deyil. Prezident İlham Əliyev TDT-nın yarandığı gündən onun təşkilatlanmasına və funksionallığının artmasına mühüm töhfələr verib. Dövlətimizin başçımızın qətiyyətli siyasi iradəsinə uyğun olaraq respublikamızın son bir ildə təşkilata sədrliyi də uğurla başa çatıb.

Bütün bunlar da Prezident İlham Əliyevin TDT-da nüfuzunu artırıb. Bunun nəticəsi olaraq Prezident İlham Əliyevin şəxsən qatılmadığı Zirvə Görüşündə Ona dərin minnətdarlıq ifadə edilib...

Mübariz ABDULLAYEV

Prezidentin iş həftəsi

26 oktyabr

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Niderland Krallığının xarici işlər naziri Tom Berendseni qəbul edib.

BMT Baş katibinin müavini, Sivilizasiyalar Alyansının ali nümayəndəsi, BMT-nin İslamofobiya ilə mübarizə üzrə xüsusi elçisi Migel Anxel Moratinosu qəbul edib.

BMT-nin Terrorçuluqla Mübarizə İdarəsinin Baş katibinin müavini vəzifəsini icra edən Aleksandr Zuyevi qəbul edib.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi İsmayıl Ould Şeyx Əhmədi qəbul edib.

Dünya Turizm Təşkilatının Baş katibi xanım Şeyxa Əl Nuveysi qəbul edib.

27 oktyabr

İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Səlim bin Məhəmməd əl-Maliki qəbul edib.

Bakıda "Ortaq gələcək naminə dialoq" mövzusunda VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində çıxış edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva oktyabrın 27-də Azərbaycan Milli İncəsənət Muzeyində görkəmli rəssam, Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilovun 80 illik yubileyinə həsr edilmiş "Mənim Abşeronum: Üstə gəl" adlı retrospektiv sərgi ilə tanış olublar.

28 oktyabr

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onlarla insanın həyatına son qoyan faciəvi qatar qəzası ilə əlaqədar İspaniyanın Baş naziri Pedro Sançesə başsağlığı verib.

30 oktyabr

Bakı Kristal Zalında "FIFA U-15 World Cup and Festival"ın final matçını izləyib. Dövlətimizin başçısı qaliblərin mükafatlandırılması mərasimində iştirak edib.

Rəcəb Tayyib Ərdoğan Zəfər Günü münasibətilə Prezident İlham Əliyevi və xalqımızı Azərbaycan səmasından təbrik etdi



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Koreya Respublikasına səfərə gedərkən təyyarəsi ölkəmizin hava məkanına daxil olduqdan sonra laynerin pilotu dispetçerlə əlaqə saxlayıb.

AZƏRTAC xəbər verir ki, o, dövlətimizin başçısı İlham Əliyevə və Azərbaycan xalqına Zəfər Günü münasibətilə Prezident Rəcəb Tayyib Ərdoğanın təbrikini çatdırıb. Təbrikdə deyilir:

"Zati-aliləri, hörmətli qardaşım, Cənubi Koreyaya səfərim zamanı qardaş Azərbaycanın hava məkanından keçərkən öz adımdan və nümayəndə heyətim adından Zati-alinizə və Azərbaycan xalqına ən səmimi salamlarımı və xoş arzularımı çatdırıram. Fürsətdən istifadə edərək ölkələrimiz arasındakı müttəfiqlik münasibətlərinin və əməkdaşlığın gələcəkdə də möhkəmlənərək inkişaf edəcəyinə güclü inamımı bir daha bildirmək istəyirəm. Qarşıdan gələn 8 Noyabr - Zəfər Günü münasibətilə Zati-alinizi və qardaş Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edir, Azərbaycana davamlı sülh, firavanlıq və tərəqqi arzulayıram.

Rəcəb Tayyib Ərdoğan
Türkiyə Respublikasının Prezidenti".

Zəfər ayının 3-cü günü

3 noyabr 2020-ci il



• Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmənin xeyli sayda canlı qüvvəsi, dörd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, bir KUB zenit-raket kompleksi, doqquz müxtəlif tipli topu və iki sursatla dolu yük maşını sıradan çıxarılıb.

• Prezident İlham Əliyevlə Rusiya Prezident Vladimir Putin arasında telefon danışığı olub.

• Cəbhədə uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı, eləcə də Xocavənd istiqamətində gedən döyüşlərə cəlb olunan Ermənistan silahlı qüvvələrinin 2-ci motoatıcı alayının xeyli sayda şəxsi heyət və döyüş texnikası məhv edilib.

• Azərbaycanın Zəngilan rayonu istiqamətində Ermənistan ilə dövlət sərhədində düşmənin kəşfiyyat-diversiya qrupu zərərsizləşdirilib.

• Ermənistan silahlı qüvvələrinin Xankəndi yaxınlığındakı iki sursat anbarının məhv edilməsinin videogörüntüsü.

• Cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətində hücuma cəhd göstərən düşmən ağır itkilərə məruz qalaraq geri çəkilib.

• Düşmənin snayper qrupu və əlahiddə zirehli tank taborunun komandiri məhv edilib.

• Ermənistanın mülki əhaliyə qarşı istifadə etdiyi qadağan olunmuş fosforlu top mərmiləri ANAMA tərəfindən zərərsizləşdirilib

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən noyabrın 3-dək 91 mülki şəxs həlak olub, 405 nəfər xəsarət alıb, 2488 ev, 97 yaşayış binası və 461 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.



• Baş Prokurorluq: İşğal olunmuş Azərbaycan torpaqlarında terror təşkilatı yaradan şəxslər barədə cinayət işi başlanıb.

Milli gücün rəmzi - azərbaycançılıq ideologiyası



Milli ideya və bu ideya ətrafında bütün cəmiyyətin, xalqın birləşməsi hər bir dövlətin mövcudluğu və inkişafı üçün əsas amildir. Qloballaşma dövründə isə milli gücün rəmzi qismində çıxış edən milli ideyanın aktuallığı heç vaxt olmadığı qədər artıb. İndiki dövrün xüsusiyyəti elədir ki, milli dövlətlər, xalqlar böyük təzyiqlərlə üz-üzə qalıblar, milli kimlik təhdid altındadır. Belə bir şəraitdə milli dövlətlər və xalqlar üçün xilas yolu bir toplum olaraq vahid ideologiya ətrafında möhkəm birləşməkdən keçir.

Xalqın öz dövləti və Lideri ətrafında sıx birliyi

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və sonrakı mərhələdə Prezident İlham Əliyevin daim sadiq qalmaqla daha da möhkəmləndirdiyi azərbaycançılıq məfkurəsi ölkəmiz və xalqımız üçün məhz milli birlik ideyasıdır. Prezident İlham Əliyev bu günlərdə Bakının ev sahiblii ilə keçirilən VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundakı çıxışında ölkəmizin reallığına dqqət çəkərək vurğulayıb: "Biz həmrəylik, qarşılıqlı hörmət və anlaşmanın ən yüksək səviyyəsini həqiqətən hiss edirik. Hamımız milli ideyalar ətrafında birləşirik. Onlardan biri azərbaycançılıqdır. O, Azərbaycandakı bütün xalqları bir araya gətirir. Bu birlik müstəqillik tariximizin ən ağır vaxtlarında özünü göstərib".

Azərbaycanın müstəqillik dönəmində keçdiyi yola istinad etməklə azərbaycançılıq məfkurəsini ölkəmizdə yaşayan bütün xalqları, cəmiyyətin bütün təbəqələrini, ayrı-ayrı yaş qruplarından olan insanları vahid amal naminə bir araya gətirən ideologiya kimi dəyərləndirmək mümkündür. Bu gün müstəqil Azərbaycan dünyaya uğurlu inkişaf modeli təqdim edir. Ölkəmizin mənzərəsi hər cəhətdən müsbətdir. Dünyada artan kataklizmlər, müharibələr və münaqişələr fonunda respublikamız sabitlik adası kimi fərqlənir. Bunun təməlində dayanan əsas amil isə cəmiyyətimizin monolitliyi, öz dövlətinin və Liderinin ətrafında sıx birləşməsidir. Xatırlatmaq yerinə düşər ki, Azərbaycan qısa müstəqillik tarixində müxtəlif mərhələlərdən keçib və bir sıra çətin sınaqlarla üzləşib. Otuz illik işğal, xarici güclərin ssenariləri əsasında qurulan dövlət çevrilişi planları, müstəqilliyimizə yönələn təhdidlər və s. bu sırada yer alır. Lakin çətinliklər qarşısında iradəmizi itirməmişik, bir xalq olaraq ümummilli ideyalar ətrafında birləşərək sınaqlardan keçməyi, Vətənimizi, suverenliyimizi, dövlətçiliyimizi qorumağı bacarmışıq. Bəli, haradakı milli maraqlar var, orada xalqın iradəsi ortadadır. Bu isə Azərbaycanı yenilməz və güclü edir! Azərbaycançılıq ideologiyası onu aşılayır ki, milli və dini mənsubiyyətindən asılı olmayaraq respublikamızın hər bir vətəndaşı Azərbaycan dövləti üçün dəyərlidir, eləcə də hər bir vətəndaş öz imkanlarını ölkənin inkişafına, qüdrətinin artmasına, suverenliyinin möhkəmlənməsinə yönəltməlidir. Çoxmillətli dövlət olan Azərbaycan bu gözəl diyarı özlərinin ümumi evi sayan bütün xalqların birliyi sayəsində güclüdür və bu əsasda özünün inamlı inkişafını təmin edir.

Azərbaycançılıq ideologiyasının əsas təməl prinsiplərindən biri - yüksək vətənpərvərlik

Biz Azərbaycan cəmiyyətinin monolitliyini, həmrəyliyini, ana Vətənə, dövlətə bağlılığını ölkəmizdə yaşayan bütün xalqların nümayəndələrinin I və II Qarabağ müharibələrində göstərdikləri misilsiz fədakarlıqların timsalında əyani şəkildə izləmişik. Onlar üçrəngli bayrağımızı başları üstünə qaldıraraq döyüşlərə doğma Vətənimiz, doğma Azərbaycanımız naminə atılırdılar. Müxtəlif etnik və dini mənsubiyyətə malik əsgər və zabitlərimiz səngərlərdə bir-birlərinə qardaş, arxa idilər, onların hamısının əsas məqsədi düşməni Vətən torpaqlarından qovub çıxarmaq, ölkəmizin ərazi bütövlüyünü təmin etmək idi. "Ermənistanın hərbi təcavüzü və işğalı, həmçinin İkinci Qarabağ müharibəsi zamanı bütün etnik və dini qrupların nümayəndələri özünəməxsusluğumuzu qorumaq, ədaləti müdafiə etmək və ərazi bütövlüyümüzü bərpa etmək üçün Qələbəmizin rəmzi olan "Dəmir yumruq" kimi vuruşdular", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Əsas məqamlardan biri də gənc nəslin milli ideologiyanı həyat amalı kimi qəbul etməsidir. Bu da gənclərin hansı mühitdə yetişmələrindən, necə təhsil almalarından asılıdır. Açıq deyək ki, dünyada Azərbaycanofob qüvvələr gəncləri öz təsir dairələrinə çəkmək və ölkəmizə qarşı məkrli planlarını məhz onların üzərindən realaşdırmaq istəyirlər. Lakin alınmır və alınmayacaq da! Çünki güclü və məsuliyyətli Azərbaycan dövləti, şəxsən Prezident İlham Əliyev hər zaman gənclərimizin yanında olmaq nümunəsi sərgiləyir. Son 23 ildə Azərbaycanın çoxmillətli gənclər ordusu Prezident İlham Əliyevin hərtərəfli qayğısı ilə əhatə olunub. İlk növbədə, onu vurğulamaq istərdik ki, Prezident İlham Əliyevin Vətən, xalq, Azərbaycanın güclənməsi, dünya birliyində layiqli yerini tutması, milli maraqlarımızın qorunması naminə çoxşaxəli fəaliyyəti hər bir gənc üçün yaxşı nümunədir. Xalqımızın tarixdən gələn ənənələri və dəyərləri, ölkəmizin milli maraqları dövlətimizin başçısı üçün qırmızı xətdir və gənclər də bundan dərs götürürlər. Eyni zamanda, ölkəmizdə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında müasir çağırışlara adekvat olan uğurlu gənclər siyasəti həyata keçirilir. Respublikamızda gənclərin keyfiyyətli təhsilə əlçatanlığının təmin olunmasını hədəfləyən bir neçə Dövlət Proqramı qəbul olunub və bu məqsədlə böyük həcmlərdə maliyyə vəsaiti ayrılıb. Respublikamızda neft gəlirləri məqsədyönlü şəkildə insan kapitalına yönəldilir.

Azərbaycan dövlətinin gənclər siyasətini həmişə diqqət mərkəzində saxlaması öz bəhrəsini verir. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərdə respublikamızda yaşayan bütün xalqları təmsil edən gənclərin göstərdikləri şücaətlər bir daha təsdiqləyir ki, Azərbaycanda Vətənə, xalqa, dövlətə, milli ideyaya bağlı olan gənclər formalaşıb. Onlar təhsildə, əmək fəaliyyətində böyük uğurlar qazandıqları kimi, torpaqlarımızın müdafiəsi üçün canlarından, qanlarından keçməyə də hazırdırlar. 44 günlük Vətən müharibəsində şanlı qələbəmizin təmin olunmasına müxtəlif nəsillərin nümayəndələri öz töhfələrini veriblər, ancaq Prezident, Müzəffər Ali Baş Komanan İlham Əliyevin vurğuladığı kimi, bu qələbəmizin təmin olunmasında gənclərin hamıdan çox rolu var. Müharibənin əsas yükü məhz gənclərin üzərinə düşüb. Qürurverici haldır ki, Azərbaycan gəncləri Vətən sınağından alınıaçıq çıxdılar.

Mübariz FEYİZLİ

Bakı qlobal güc mərkəzləri ilə bir masada...

Azərbaycanın G20-yə dəvət edilməsi beynəlxalq nüfuzun və artan geostrateji əhəmiyyətin təsdiqidir

Azərbaycanın xarici siyasət strategiyası qarşılıqlı faydalı əməkdaşlıq, etibarlı tərəfdaşlıq və kollektiv təhlükəsizlik prinsiplərinə əsaslanır. Dünyada geosiyasi qüvvələr nisbətinin dəyişdiyi, iqtisadi əlaqələrin yeni məzmun aldığı və dövlətlərarası rəqabətin gücləndiyi indiki mərhələdə Bakı çevik diplomatik yanaşması, təşəbbüskarlığı və praqmatik qərarları ilə seçilir. Ölkəmizin beynəlxalq nüfuzunu artıran mühüm xüsusiyyətlərdən biri regional maraqları qlobal əməkdaşlıq gündəliyi ilə uzlaşdırmaq bacarığıdır. Enerji təhlükəsizliyi, nəqliyyat-logistika bağlantıları, ərzaq təminatı, rəqəmsallaşma və yaşıl enerji sahələrində irəli sürülən təşəbbüslər Azərbaycanın çoxtərəfli münasibətlər sisteminə verdiyi töhfənin miqyasını göstərir.

Paralel olaraq, xarici siyasət kursunda əməkdaşlıq, tərəfdaşlıq və kollektiv təhlükəsizlik prinsiplərini əsas götürən Azərbaycan dəyişən beynəlxalq münasibətlər sistemində öz mövqelərini daha da möhkəmləndirir. Azərbaycanın coğrafi mövqeyi, enerji və nəqliyyat imkanları, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynaması beynəlxalq proseslərdəki əhəmiyyətini daha da artırır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin qarşılıqlı maraqlara, suverenliyə hörmətə və bərabərhüquqlu tərəfdaşlığa söykənməsi ölkəmizin beynəlxalq nüfuzunu gücləndirən başlıca amillərdəndir. Təsadüfi deyil ki, Azərbaycan artıq qlobal qərarların və çağırışların müzakirə olunduğu mühüm platformalarda fəal təmsil olunur, eyni zamanda, belə platformaların fəaliyyətinə real töhfələr verir. Bunun ən son nümunələri Bakının Mərkəzi Asiya məşvərət məclisinə üzv seçilməsi, o cümlədən oktyabrın 15-də Bakıda keçirilən Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) VII Zirvə toplantısıdır. Azərbaycanın sədrliyi dövründə təşkilatın institusional inkişafına, rəqəmsallaşma, nəqliyyat bağlantıları və dayanıqlı iqtisadi artım istiqamətlərində əməkdaşlığa mühüm töhfələr verilib. Zirvə toplantısında Azərbaycanın sədrliyinin 2026-2028-ci illər üçün uzadılması ölkəmizə göstərilən etimadın növbəti təsdiqidir. Digər beynəlxalq platformalarda həyata keçirilən təşəbbüslər bu diplomatik xəttin davamlılığını təsdiqləyir.

Bu mənada, Azərbaycanın mühüm qərarların veriləcəyi, o cümlədən qlobal proseslərin müzakirə olunacağı masalara dəvət olunması artıq təbii hal kimi qəbul olunur. Böyük güclər tərəfindən təqdir olunan orta güc statumuz bizi beynəlxalq aləmin mühüm bir parçasına çevirib. Beləliklə, Azərbaycanın bir müddət sonra ABŞ-ın Mayami şəhərində keçiriləcək G20 toplantısına dəvət alması da aparılan siyasi xəttin nəticəsidir. Qeyd edək ki, bu ilin avqustun 8-də Prezident İlham Əliyevlə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp arasında telefon danışığı zamanı dövlət başçımız G20-yə dəvətə görə ABŞ Prezidentinə təşəkkür etmiş, bunu, ölkəmizə olan xoş münasibətin təzahürü kimi qiymətləndirmişdi.

Vurğulandığı kimi, Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Tramp tərəfindən G20 sammitinə dəvət edilməsi Azərbaycanın beynəlxalq siyasi və iqtisadi proseslərdə artan rolunun göstəricisidir. Bütün bunlar təsdiqləyir ki, Bakı artıq yalnız əməkdaşlıq təşəbbüslərinin iştirakçısı deyil, həm də yeni çoxtərəfli münasibətlər sisteminin formalaşmasına istiqamət verən aktorlardan biridir.

Orta güc statusunun təsdiqi - Bakı qlobal arenada

Azərbaycan dövləti xarici siyasət kursunda ikitərəfli əlaqələr qədər çoxvektorlu münasibətlərə də xüsusi əhəmiyyət verir. Bu kursun ən mühüm dayaqlarından biri çoxtərəfli əlaqələrin inkişafı, beynəlxalq və regional təşkilatlarla əməkdaşlığın gücləndirilməsidir - ölkəmiz təmsil olunduğu hər bir beynəlxalq platformada fəallığı və təşəbbüskarlığı ilə seçilir, qlobal miqyasda əhəmiyyətli aktor kimi qəbul olunur. Azərbaycanın iqtisadi əməkdaşlığa verdiyi töhfələr, enerji təhlükəsizliyində oynadığı rol, nəqliyyat dəhlizlərinin inkişafında yaratdığı imkanlar və qlobal təhlükəszlik prizmasından Cənubi Qafqazda sülh gündəmini reallaşdırması bu fəallığın konkret göstəriciləridir.

Eyni zamanda, Azərbaycanın yeni mərhələdə formalaşan iqtisadi-siyasi, ticari münasibətlər sisteminə verdiyi töhfələr beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Ərazi baxımından kiçik olsa da, Azərbaycanın dünyada cərəyan edən iqtisadi-ticari proseslərə aktiv müdaxilə imkanı mövcuddur. Nəticə isə göz önündədir - bu gün ABŞ, Avropa, Yaxın və Orta Şərq, ərəb-islam dünyası, Mərkəzi Asiya, Uzaq Şərq, Çin, hətta Qlobal Cənubin (Afrika) təmsilçiləri də Azərbaycanın apardığı uğurlu siyasətin dəstəkçisi, tərəfdaşı kimi çıxış edir. Beləliklə, Azərbaycanın beynəlxalq aləmlə əlaqələri və əməkdaşlıq coğrafiyası genişlənməkdədir.

Azərbaycanın yaratdığı reallıqlar yeni inteqrasiya sistemi formalaşdırır

Azərbaycanın bu cur xüsusi anlam daşımasının arxısında isə arqumentlər və faktlar dayanır. 2020-ci ildən başlayaraq formalaşan yeni dünya düzəni özündə əsas etibarı ilə iqtisadi şəkilləndirməni ehtiva etməkdədir - yeni dünya "yol strategiyası"na əsaslanaraq özünün ticari doktrinasını formalaşdırır. Azərbaycan da bu gün ən əhəmiyyətli qovşaqlardan biri kimi Avrasiyanın mərkəzində birləşdirici funksionallıq daşıyır. Orta Dəhliz vasitəsilə Qərbi Şərqə bağlayan, Mərkəzi Asiya ilə Kiçik Asiyanı qovuşduran, oradan isə Avropa məkanına inteqrasiyanı reallaşdıran Azərbaycan böyük bir anlamda ticari körpüyə çevrilib. İstər enerji, istərsə də digər sahələrin inkişafı üçün əsas meyara çevrilmiş Azərbaycan öz üstünlüklərini məharətlə iqtisadi dividendə çevirir - dünyanın bizimlə birgə olmasının ən əsas amili isə odur ki, biz bu dividendi lokal deyil, qlobal müstəvidə dəyərləndiririk. Başqa sözlə, Azərbaycanın yaratdığı bu mənzərədən bütün dünya iqtisadi - ticari baxımdan bəhrələnir. Qeyd olunduğu kimi, müəyyənləşdirilən və həyata keçirilən xarici siyasət kursu özündə qlobal həmrəyliyi və beynəlxalq əməkdaşlığı birləşdirməklə yanaşı, yeni layihələrin formalaşdırılmasını və təbliğini də ehtiva edir. Bütün bunların fonunda isə Bakı tranzit xarakterli mühüm bir regionda təhlükəsizlik amilini gücləndirir, iqtisadi münasibətlərdə yalnız şəffaflığa və dürüstlüyə, dotsluğa əsaslanan tezisləri ortaya qoyur, coğrafi imkanlarını yaxın-uzaq tərəfdaşları üçün səmərəli istifadə halına gətirir, istər ənənəvi, istərsə də yeni enerji mühitində etibarlı tərəfdaş kimi özünü sübut edir. Bütün bunlar isə Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki hazırki uğurlu yerini müəyyənləşdirir.



G20 - qlobal təsirə malik güc...

Qeyd edək ki, G20 və ya İyirmilik Qrup 19 ölkəni və Avropa İttifaqını (Aİ), eləcə də 2023-cü ildən Afrika İttifaqını birləşdirən hökumətlərarası forumdur. Ümumilikdə, dünya iqtisadiyyatının təxminən 85 faizini, qlobal ticarətin isə 75 faizini əhatə edən G20 beynəlxalq iqtisadi münasibətlərin formalaşmasında aparıcı platformalardan biridir." Əlavə olaraq, G20 dünya əhalisinin təxminən üçdə ikisini əhatə edir. Qrupa ölkə olaraq Argentina, Avstraliya, Braziliya, Birləşmiş Krallıq, Almaniya, Hindistan, İndoneziya, İtaliya, Kanada, Çin, Meksika, Rusiya, Səudiyyə Ərəbistanı, ABŞ, Türkiyə, Fransa, Koreya Respublikası, Cənubi Afrika Respublikası və Yaponiya daxildir.

G20 1990-cı illərin sonlarında baş verən Asiya maliyyə böhranına və inkişaf etməkdə olan bazar iqtisadiyyatlarının qlobal iqtisadi müzakirələrdə iştirakının təmininə uyğun olaraq yaradılıb. 2008-ci ildən əvvəl qrup yüksək səviyyəli zirvə görüşləri keçirmirdi - onun əsas fəaliyyəti maliyyə nazirlərinin və mərkəzi bank rəhbərlərinin illik görüşləri idi. Bu gün G20 zirvə görüşləri beynəlxalq maliyyə və iqtisadi sistemlə bağlı məsələlər üzrə əməkdaşlıq və məsləhətləşmələr üçün qlobal forum kimi xarakterizə olunur.

Qrupun təsis konfransı 15-16 dekabr 1999-cu il tarixlərində Berlində keçirilib. Qrup, inkişaf etməkdə olan ölkələrlə əsas iqtisadi və maliyyə siyasəti məsələləri üzrə dialoq aparmaq üçün yeddi aparıcı sənaye ölkəsinin - Birləşmiş Krallıq, İtaliya, Kanada, ABŞ, Almaniya, Fransa və Yaponiyanın maliyyə nazirlərinin təşəbbüsü ilə yaradılıb.

G20 Antiböhran Zirvəsi 14-15 noyabr 2008-ci il tarixlərində Vaşinqtonda qlobal maliyyə böhranı ilə bağlı məsələləri müzakirə etmək üçün keçirilib.

2009-cu il sammitində G20 özünü beynəlxalq iqtisadi və maliyyə əməkdaşlığının əsas məkanı elan etdi. Qrupun nüfuzu sonrakı onillikdə yüksəldi və o analitiklər tərəfindən əhəmiyyətli qlobal təsirə malik kimi güc kimi tanınır. Siyasi mütəxəssislər G20-ni İkinci Dünya Müharibəsindən sonrakı iqtisadi siyasətin beynəlxalq koordinasiyasına yönəlmiş sonuncu təşəbbüs kimi xarakterizə edir. G20-nin əsas diqqət yetirdiyi məqam qlobal iqtisadiyyatın idarə olunmasıdır. Sammitin mövzuları ildən-ilə dəyişir. 2008-ci ildə Vaşinqtonda keçirilən debüt sammitindən 2011-ci il sammitinə qədər görüşlər ildə iki dəfə keçirilib.

Azərbaycanın G20-yə dəvəti dünya nizamında orta güclərin rolunun artmasının nümunəsidir

Azərbaycan üçün G20 platforması iqtisadiyyatın diversifikasiyası, investisiyaların cəlbi, enerji və nəqliyyat layihələrinin təşviqi baxımından yeni imkanlar yaradır. Bakı burada Orta Dəhliz, Zəngəzur dəhlizi, enerji təhlükəsizliyi, yaşıl enerji və rəqəmsal transformasiya kimi təşəbbüslərini dünyanın aparıcı iqtisadiyyatlarının diqqətinə çıxara bilər. Bu isə Azərbaycanın geoiqtisadi əhəmiyyətini daha da artırır.

Daha geniş mənada, Azərbaycanın G20-yə dəvəti dünya nizamında orta güclərin rolunun artmasının da nümunəsidir. Bakı böyük güclər arasında seçim etmək əvəzinə müxtəlif güc mərkəzləri ilə paralel və praqmatik əməkdaşlıq quraraq öz milli maraqlarını təmin edir. Bu baxımdan G20 Azərbaycanın diplomatik çəkisinin, geosiyasi manevr imkanlarının və qlobal qərarvermə proseslərinə təsir potensialının artdığını göstərən mühüm platformadır.

P.SADAYOĞLU

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib















Noyabrın 2-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatının və Nərimanov rayon təşkilatının birgə təşkil etdiyi 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, bu gün biz Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə yazılmış bir tarixi, milli qürurumuzu, qəhrəmanlıq salnaməmizi və gələcək nəsillərə ötürəcəyimiz müqəddəs bir əmanəti yad etmək üçün bir araya gəlmişik: "Azərbaycanın Zəfər tarixi bir xalqın öz taleyinə sahib çıxmasının, milli iradəsinin, birliyinin və sarsılmaz dövlətçilik əzminin tarixidir. Bu tarix illərlə qəlbimizdə yaşatdığımız bir arzunun, Vətən torpaqlarına qayıdışın, ədalətin bərpasının və milli qürurumuzun təntənəsidir. Bu möhtəşəm Zəfər millətimizin yaddaşına yalnız hərbi Qələbə kimi deyil, həm də tarixi ədalətin və milli ləyaqətin bərpası, dövlətimizin qüdrətinin, əsrlər boyu öz milli kimliyini qoruyub saxlayan xalqımızın sarsılmaz iradəsinin təcəssümü və yenilməz ruhunun təntənəsi kimi əbədi həkk olunmuşdur. Lakin biz bu gün Zəfərdən danışarkən onun ən ağır bədəlini də unutmamalıyıq. Hər bir Zəfərin arxasında bir qəhrəmanlıq, hər bir qəhrəmanlığın arxasında isə bir insan taleyi dayanır. Şəhidlərimizin qəhrəmanlığı yalnız döyüş meydanında göstərdikləri igidliklə ölçülmür. Onların hər biri gələcək nəsillərə Vətənə sədaqət, torpağa bağlılıq və milli ləyaqət nümunəsidir".

YAP Sədrinin müavini vurğulayıb ki, işğaldan azad edilmiş torpaqlarımızda şəhidlərimizin qanı və qazilərimizin fədakarlığı hesabına ucalan üçrəngli bayrağımız milli istiqlaliyyət rəmzi kimi əzəmətlə dalğalanır, Azərbaycan dövləti və xalqı ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda qəhrəmancasına döyüşmüş mübariz Vətən övladlarının əziz xatirəsini daim uca tutur: "Şəhid ailələrinə və qazilərə göstərilən diqqət dövlətimizin sosial siyasətinin mühüm istiqamətlərindəndir. Bu sahədə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər müstəsna əhəmiyyət daşıyır. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə, qazilərə, müharibədən zərər çəkmiş insanlara və onların övladlarına humanizmə, mərhəmətə və insan amilinə əsaslanan diqqət və qayğısı cəmiyyətimizdə mənəvi həmrəyliyin güclənməsinə xidmət edir. Bu qayğı yalnız maddi dəstəklə məhdudlaşmır: o, insanın dərdinə şərik olmaq, ailənin yanında dayanmaq, gələcəyə ümid vermək deməkdir. Müzəffər Ali Baş Komandanımızın 2020-ci il noyabrın 8-də Şuşanın işğaldan azad olunması barədə müjdəni məhz Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciəti zamanı verməsi Vətənin bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhuna ali ehtiram nümunəsidir. Allahdan bütün şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik".

Tahir Budaqov bildirib ki, möhtəşəm Zəfərimizin hər bir ildönümü bizi şanlı tariximizə yenidən nəzər salmağa və gələcək nəsillər qarşısında məsuliyyətimizi aydın müəyyənləşdirməyə sövq edir: "Bu Zəfər bir gündə qazanılmadı. Onun təməlində illərlə aparılan dövlət quruculuğu, güclənən iqtisadiyyat, formalaşan müasir ordu, xalqımızın birliyi və ən əsası, Vətən sevgisi dayanırdı. Bu tarixi yolun möhkəm təməli Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti, uzaqgörənliyi və dövlətçilik irsi ilə bağlıdır. Ulu Öndər güclü Azərbaycan dövlətinin qurulmasına, milli ordumuzun formalaşmasına və xalqımızın özünəinamının möhkəmlənməsinə böyük töhfələr verdi. Onun müəyyən etdiyi dövlətçilik strategiyası müasir Azərbaycanın inkişaf yolunda mühüm istiqamət oldu. Dahi şəxsiyyətin müdrik siyasəti Azərbaycan xalqına ən dəyərli milli sərvətimiz olan dövlət müstəqilliyini bəxş etdi və böyük Zəfər yolunun əsasını qoydu. 2003-cü ildə xalqımız Heydər Əliyev yoluna sədaqət nümayiş etdirərək cənab İlham Əliyevə yüksək etimad göstərmişdir ki, bu da Ümummilli Liderin müəyyənləşdirdiyi siyasətin alternativsizliyinə qətiyyətli inamın birmənalı ifadəsidir. Heydər Əliyev siyasətinin tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və çağdaş reallıqlara uyğun davam etdirilməsi Azərbaycanı davamlı tərəqqi yoluna çıxarmışdır. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri Onun siyasi varisi İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirmişdir. Cənab İlham Əliyevin ata vəsiyyətinə əsaslanan qətiyyətli siyasəti nəticəsində iqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran və beynəlxalq mövqeyini möhkəmləndirən ölkəmizin ərazi bütövlüyünün və mütləq suverenliyinin təmin olunması isə xalqımızın milli qürurunun bariz təcəssümü və dövlətçilik tariximizin şanlı səhifəsi olmaqla, vaxtilə "Bütün işğal olunmuş torpaqlar Azərbaycan xalqının iradəsi, qəhrəman oğulların şücaəti ilə azad olunacaqdır", - deyən Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarının təntənəsidir".

YAP Mərkəzi Aparatının rəhbəri vurğulayıb ki, müasir dövlətçilik tariximizin taleyüklü mərhələsində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə yaranmış Yeni Azərbaycan Partiyası ölkəmizin tərəqqisinə və dövlətçiliyimizin möhkəmlənməsinə müstəsna töhfələr vermişdir: "Şərəfli inkişaf yolu keçən Yeni Azərbaycan Partiyası təşkilati və ideoloji potensialını daha da gücləndirərək ölkəmizin ictimai-siyasi həyatında aparıcı mövqeyini daha da möhkəmləndirmiş və Cənubi Qafqazın ən böyük siyasi qüvvəsinə çevrilmişdir. Bu gün qanunun aliliyi, azadlıq və bərabərlik prinsiplərini əsas götürərək siyasi plüralizmi təşviq edən partiyamız avanqard siyasi qüvvə kimi milli maraqların müdafiəsi, xalq-iqtidar birliyinin və ictimai-siyasi sabitliyin qorunması, dövlətçilik ənənələrinin yaşadılması istiqamətində fəaliyyətini müvəffəqiyyətlə davam etdirir".

"YAP-ın VIII Qurultayında Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev partiyamızın fəaliyyətinə yüksək qiymət verməklə qarşımızda duran başlıca vəzifələri və gələcəyə yönəlik strateji hədəfləri də dəqiq müəyyən etmişdir. Zəfər bizə yalnız torpaqlarımızın azadlığını deyil, həm də böyük məsuliyyət bəxş edib. İndi qarşımızda işğaldan azad edilmiş ərazilərin bərpası, doğma yurdlarına qayıdan insanların həyatının yenidən qurulması, şəhər və kəndlərimizin dirçəldilməsi, gələcək nəsillər üçün təhlükəsiz və firavan Azərbaycanın yaradılması kimi mühüm vəzifələr dayanır. Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işləri, Böyük Qayıdış prosesi Zəfərimizin yeni mərhələsidir. Torpaqlarımıza qayıdış yalnız evlərə qayıdış deyil; bu, yaddaşımıza, köklərimizə, tarixi irsimizə və gələcəyimizə qayıdışdır. Azərbaycan xalqının gücü onun birliyindədir. Biz çətin günlərdə bir yumruq kimi birləşdik, Vətənimizin taleyi qarşısında məsuliyyətimizi dərk etdik və tarix yazdıq. Bu birlik bundan sonra da dövlətimizin inkişafının, sülhün, sabitliyin və gələcək uğurlarımızın əsas dayağı olmalıdır. Azərbaycanın ərazi bütövlüyünün və mütləq suverenliyinin bərpası nəticəsində yaranmış yeni reallıqlar fonunda başlıca məqsədimiz bugünədək qazandığımız tarixi nailiyyətləri qorumaqla dövlət müstəqilliyini daha da möhkəmləndirmək və ölkəmizin davamlı inkişafını təmin etməkdir. Bu mühüm vəzifələrin həyata keçirilməsində ümumxalq etimadını doğruldan Yeni Azərbaycan Partiyasının üzərinə böyük məsuliyyət düşür", - deyə Tahir Budaqov əlavə edib.

Müasir dövrdə dövlətin gücünün yalnız iqtisadi göstəricilər, hərbi imkanlar və beynəlxalq nüfuzla ölçülmədiyini söyləyən YAP Sədrinin müavini qeyd edib ki, milli gücün mühüm dayaqlarından biri də xalqın mənəvi dəyərlərə bağlılığı, dövlətçilik təfəkkürü, tarixi yaddaşı və gələcəyə baxışıdır: "Çünki tarixini tanıyan xalq öz kimliyini daha yaxşı dərk edir, keçmişindən güc alır və gələcəyini daha inamla qurur. Biz istəyirik ki, böyüyən nəsil Zəfər tarixini yalnız dərsliklərdəki tarixlər kimi deyil, öz ailəsinin, öz xalqının və öz dövlətinin taleyi kimi qəbul etsin. Bilsin ki, bu gün dalğalanan üçrəngli bayrağımızın arxasında şəhidlərimizin qanı, qazilərimizin fədakarlığı, əsgərlərimizin igidliyi, xalqımızın birliyi və dövlətimizin qətiyyəti dayanır. Bu gün qlobal informasiya məkanında sürətli dəyişikliklərin baş verməsi, rəqəmsal texnologiyaların, o cümlədən süni intellektin həyatın müxtəlif sahələrinə təsirinin genişlənməsi, sosial şəbəkələrin ictimai rəyin formalaşmasında rolunun artması dövlət siyasətinin mühüm prioritetlərindən biri olan ideoloji işin yeni reallıqlara və müasir çağırışlara uyğun təkmilləşdirilməsini zəruri edir. Belə bir şəraitdə qabaqcıl kommunikasiya texnologiyalarından istifadə edərək dövlət siyasətinin mahiyyəti və nəticələri barədə ictimaiyyətə dolğun məlumat çatdırmaq, cəmiyyəti maraqlandıran məsələlərə aydınlıq gətirmək, Azərbaycan həqiqətlərini beynəlxalq auditoriyaya düzgün təqdim etmək və dezinformasiya kampaniyalarına qarşı ardıcıl mübarizə aparmaq olduqca önəmlidir. Bu istiqamətdə sistemli fəaliyyətin mühüm tərkib hissəsi olaraq bütün uğurlarımızın və möhtəşəm Zəfərimizin əsaslarını təşkil edən Heydər Əliyev ideyalarının və azərbaycançılıq ideologiyasının təşviqi, Prezident İlham Əliyevin müasir dövlətçilik strategiyasının təbliği, tarixi yaddaşın qorunması, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və digər istiqamətlərdə işlər fasiləsiz davam etdirilməlidir. Bu xüsusda dövlət qurumları, geniş ictimaiyyət və Yeni Azərbaycan Partiyasının yerli təşkilatları arasında əməkdaşlığın daha da gücləndirilməsi vacibdir. Hər bir partiya fəalı ictimai etimadın gücləndirilməsi və milli birliyin möhkəmləndirilməsi məqsədilə sağlam dialoqa üstünlük verərək və yüksək siyasi mədəniyyət nümayiş etdirərək öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir".

"Qalib Azərbaycanın sarsılmaz qüdrətinin ifadəsi olan 8 Noyabr - Zəfər Günü, həmçinin qarşıdan gələn 9 Noyabr - Dövlət Bayrağı Günü və 12 Noyabr - Konstitusiya Günü münasibətilə hər birinizi təbrik edir, möhkəm cansağlığı və dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə qalib Azərbaycanın daha parlaq gələcəyi naminə şərəfli fəaliyyətinizdə uğurlar arzulayıram. Yaşasın müstəqil və qalib Azərbaycan! Eşq olsun Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevə!", - deyə YAP Sədrinin müavini vurğulayıb.

Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü, Milli Məclisin deputatı Tahir Rzayev çıxışında bildirib ki, Zəfər tariximizin hər bir səhifəsi düşünülmüş siyasətin, hərbi peşəkarlığın, qətiyyətli qərarların və xalq-ordu birliyinin təntənəsidir. Onun sözlərinə görə, Azərbaycan tarixi Zəfəri ilə işğala son qoymaqla yanaşı, Cənubi Qafqazda yeni geosiyasi reallıqlar yaratdı: "Bu Qələbə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası ilə yanaşı, milli iradənin və tarixi ədalətin təntənəsi kimi unudulmazdır. Dövlətimizin başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev partiyanın VIII Qurultayında "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir, 8 Noyabr bizim əbədi bayramımız olacaq" fikrini səsləndirməklə tarixi Qələbəmizin əhəmiyyətini bir daha vurğuladı. Prezident İlham Əliyev qürurla bildirdi ki, vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyənlər bu gün "Qarabağ Azərbaycandır!" həqiqətini qəbul etmək məcburiyyətindədirlər. Şanlı Qələbəmiz Azərbaycan xalqının Vətənə və torpağa sonsuz məhəbbətinin, birliyinin təcəssümüdür. Bu birlik bir daha göstərdi ki, Vətən sevgisi yalnız hiss deyil, zərurət yarandıqda fədakarlığa çevrilən mənəvi gücdür".

Tahir Rzayev bildirib ki, tarixi Zəfərimiz sülhə, əminamanlığa, dostluğa, əməkdaşlığa, azadlığa, bərabərliyə, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə çağırışdır: "O həm də ədalətsizliyə, beynəlxalq hüquq normalarının pozulmasına, insan ləyaqətinin alçaldılmasına və haqqın boğulmasına qarşı qətiyyətli etirazdır. Zəfərimizin arxasında yalnız hərbi uğur deyil, bir xalqın illərlə qəlbində yaşatdığı azadlıq arzusu və tarixi ədalətə olan inamı var. Şanlı Zəfərimiz təcavüzkar Ermənistanın və ona arxa duranların, BMT Təhlükəsizlik Şura-

davamı 5-ci səhifədə

Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş tədbir keçirilib

əvvəli 4-cü səhifədə

sının dörd qətnaməsini kağız üstə qoyanların, fəaliyyətsiz ATƏT-in Minsk Qrupunun, ölkəmizə qarşı sanksiya tətbiq etmək istəyənlərin sifətinə haqqın, ədalətin sarsılmaz möhürünü vurdu".

YAP Veteranlar Şurasının üzvü vurğulayıb ki, Heydər Əliyev ideyalarını rəhbər tutaraq tarixi qələbələrə imza atan Azərbaycan Prezidenti VIII Qurultaydakı çıxışında iqtisadi inkişafın sürətləndirilməsi və xalqın rifahının yüksəldilməsi sahəsində qarşıya yeni vəzifələr qoymuşdur: "Bu vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi ölkəmizin gələcək inkişafı, əldə olunan nailiyyətlərin qorunması və dövlətçiliyimizin daha da möhkəmləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu vəzifələr sırasında, ilk növbədə, milli birliyin və milli təhlükəsizliyin qorunması zəruridir, bu günümüzün tələbidir. Çünki dövlətin qüdrəti yalnız iqtisadi və hərbi potensialla deyil, həm də cəmiyyətin həmrəyliyi, ümummilli məqsədlər ətrafında birləşmək bacarığı və milli maraqlara sədaqəti ilə ölçülür. İdeoloji təhlükəsizlik də fiziki təhlükəsizlik qədər vacib hesab olunur və bu istiqamətdə sistemli, məqsədyönlü tədbirlərin görülməsi vacibdir. Qarşıya qoyulan vəzifə milli maraqların qorunması, cəmiyyətin düzgün məlumatlandırılması və sağlam ictimai düşüncənin formalaşdırılması baxımından çox əhəmiyyətlidir. Azərbaycan xalqının sosial rifahının yüksəldilməsi, iqtisadiyyatın inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər çərçivəsində görülən işlərin təbliği gündəlik fəaliyyətimizin əsasını təşkil etməlidir. Yeni Azərbaycan Partiyasının son illərdə həyata keçirdiyi genişmiqyaslı ideoloji işin istiqaməti məhz uğurlu nəticələrin əhaliyə dolğun və obyektiv şəkildə çatdırılmasına, qarşıya qoyulan vəzifələrin mahiyyətinin ətraflı izah edilməsinə yönəldilmişdir. Çünki cəmiyyətlə davamlı ünsiyyət və görülən işlər barədə məlumatlılığın artırılması uğurlarımızın dəyərləndirilməsində mühüm rol oynayır".









Millət vəkili qeyd edib ki, Zəfər tariximizin təbliği, ordumuzun keçdiyi şərəfli yolun, oğul və qızlarımızın qəhrəmanlığının, xalqımızın Vətənə, torpağa və el-obaya bağlılığının, milli-mənəvi dəyərlərimizin qorunması, yaşadılması daim diqqət mərkəzindədir: "Şəhidlərimizin əziz xatirəsi ehtiramla yad edilir, qazilərimizə diqqət və qayğı göstərilir. Biz partiya veteranları keçirdiyimiz görüşlərdə və iştirak etdiyimiz çoxsaylı tədbirlərdə bu işlərin şahidi və iştirakçısıyıq. Bu tədbir də əldə etdiyimiz tarixi nailiyyətlərin əhəmiyyətini qiymətləndirmək, uğurlarımıza yeni dəstək vermək və gələcəyə daha inamla baxmaq üçün dəyərlidir. Qoy Zəfərimizin işığı yolumuzu daim nurlandırsın, milli birliyimiz və dövlətçiliyimiz daha da möhkəmlənsin, Azərbaycan xalqının qələbə ruhu gələcək nəsillərə örnək olsun".

Çıxış edən Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə qeyd edib ki, 8 Noyabr sadəcə hərbi Qələbənin ildönümü deyil: "Bu tarix Azərbaycan xalqının onilliklər boyu qəlbində yaşatdığı ədalət arzusunun gerçəkləşdiyi, milli ləyaqətimizin bərpa olunduğu, dövlətimizin gücünün və xalqımızın yenilməz iradəsinin bütün dünyaya nümayiş etdirildiyi tarixi gündür. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının VIII Qurultayındakı çıxışında xüsusi vurğulamışdır ki, 8 Noyabr bizim əbədi bayramımız olacaq. Bu fikir Zəfər Gününün yalnız bugünkü nəslin deyil, gələcək nəsillərin də milli yaddaşında əbədi yaşayacağını ifadə edir".

YAP İdarə Heyətinin üzvü bildirib ki, bu böyük Qələbənin arxasında Ali Baş Komandanın siyasi və hərbi qətiyyəti, Azərbaycan əsgərinin şücaəti, xalqımızın sarsılmaz birliyi dayanırdı: "Prezident İlham Əliyev YAP-ın VIII Qurultayında da bu amili xüsusi qeyd edərək bildirmişdir ki, ölkəmizə qarşı yönəlmiş təzyiqlərin və mənfi kampaniyaların qarşısını Azərbaycan xalqının vahid mövqeyi, dövlətin qətiyyətli siyasəti və dönməz fəaliyyəti aldı. Bu, bir daha təsdiq etdi ki, xalqla iqtidarın birliyi Azərbaycanın ən böyük strateji gücüdür. Əlbəttə, bu Zəfər ağır itkilər hesabına qazanıldı. Şəhidlərimizin qanı ilə yazılan tarix heç vaxt unudulmayacaq. Bu gün azad səmalarda dalğalanan üçrəngli bayrağımızın hər bir qarışında şəhidlərimizin əbədi xatirəsi yaşayır. Onların qəhrəmanlığı qarşısında baş əyir, qazilərimizin fədakarlığını dərin ehtiramla yad edirik. Şəhidlərimizin bizə əmanət qoyduğu Vətənə sahib çıxmaq hər birimizin mənəvi və vətəndaşlıq borcudur".

Millət vəkili vurğulayıb ki, bu gün Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri Zəfərimizin davamı, dövlətimizin gücünün və xalqımıza bağlılığının növbəti təzahürüdür: "Bir zamanlar dağıdılmış, viran qoyulmuş ərazilərdə yeni şəhərlər, kəndlər, yollar, məktəblər, xəstəxanalar, sənaye və infrastruktur obyektləri inşa olunur. Böyük Qayıdış Proqramı çərçivəsində keçmiş məcburi köçkünlərimiz doğma torpaqlarına qayıdır, həyat yenidən canlanır. Bu proses yalnız fiziki bərpa deyil, tarixi yaddaşın, milli kimliyin və mənəvi bağlılığın bərpasıdır. Qarabağda və Şərqi Zəngəzurda qurulan hər bir yeni ev, açılan hər bir məktəb, dalğalanan hər bir bayraq Azərbaycan dövlətinin qüdrətinin və xalqımızın gələcəyə inamının ifadəsidir".

Pərvin Kərimzadənin sözlərinə görə, Zəfərimizin digər mühüm nəticəsi Azərbaycanın beynəlxalq mövqelərinin daha da güclənməsidir: "Bu gün ölkəmiz yalnız öz təhlükəsizliyini təmin edən dövlət deyil, həm də regional sülhün, əməkdaşlığın və yeni iqtisadi əlaqələrin formalaşmasında mühüm rol oynayan aktordur. Azərbaycan sülh gündəliyini irəli sürməklə bir daha nümayiş etdirir ki, onun məqsədi əldə olunmuş tarixi nailiyyətləri möhkəmləndirmək, regionda davamlı sabitlik və inkişaf üçün şərait yaratmaqdır. Prezident İlham Əliyevin VIII Qurultaydakı çıxışında ifadə etdiyi mühüm fikirlərdən biri də Azərbaycanın öz tarixi həqiqətlərini dünya ictimaiyyətinə çatdırması ilə bağlıdır. Dövlətimizin başçısı bildirmişdir: "Bizə əfsanə yaratmaq lazım deyil. Bizə lazımdır ki, həqiqətlər hər bir vətəndaşa çatsın". Bu yanaşma xüsusilə əhəmiyyətlidir. Çünki Azərbaycanın Zəfəri, keçdiyi mübarizə yolu və əldə etdiyi nailiyyətlər tarixi faktlara, real siyasi nəticələrə və xalqımızın qəhrəmanlığına əsaslanır. Bu həqiqətlərin qorunması, təbliği və gələcək nəsillərə çatdırılması hər birimizin vətəndaşlıq məsuliyyətidir".

"Bu gün qarşımızda duran əsas vəzifə qazanılmış tarixi nailiyyətləri qorumaq, güclü və müasir Azərbaycanı daha da inkişaf etdirmək, gənc nəsli Vətənə sədaqət, milli-mənəvi dəyərlərə hörmət və dövlətçilik ruhunda yetişdirməkdir. Zəfər tariximiz gələcək nəsillərə yalnız qələbə sevincini deyil, həm də böyük məsuliyyət hissini aşılamalıdır. Biz bu gün qürurla deyə bilərik ki, Azərbaycan öz ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa edib, öz tarixinin yeni səhifəsini özü yazıb. Bu, xalqımızın iradəsinin, dövlətimizin qüdrətinin və Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən müstəqil siyasətin tarixi nəticəsidir. 8 Noyabr - Zəfər Günü əbədi olaraq Azərbaycan xalqının milli qürur, birlik və qalibiyyət rəmzi kimi yaşayacaq", - deyə YAP İdarə Heyətinin üzvü əlavə edib.

Sonra çıxış edən Vətən müharibəsi iştirakçısı, qazi İlham Əliyev qeyd edib ki, güclü və qalib Azərbaycanın vətəndaşı olmaq böyük qürurdur: "Amma hamımız yaxşı bilirik ki, bu günlərə asan gəlib çatmamışıq. Bu qürurun arxasında böyük mübarizə, xalqımızın iradəsi, şəhidlərimizin qanı dayanır. Mən bir Vətən müharibəsi qazisi, Şuşanın azadlığı uğrunda döyüşmüş bir əsgər kimi bu Qələbənin necə böyük fədakarlıqlar hesabına qazanıldığını yaxşı bilirəm. Ona görə də Zəfər Günü yalnız bayram deyil, həm də böyük məsuliyyət və minnətdarlıq günüdür".

Vətən müharibəsi iştirakçısı bildirib ki, işğaldan azad edilmiş ərazilərimizdə üçrəngli bayrağımız dalğalanır: "Şəhərlərimiz, kəndlərimiz yenidən qurulur, insanlar öz doğma yurdlarına qayıdır. Bu Qələbənin əldə olunmasında xalqımızın birliyi, Prezident, Müzəffər Ali Baş Komandan, İlham Əliyevin qətiyyətli rəhbərliyi və ordumuzun qəhrəmanlığı həlledici rol oynamışdır. Müharibə dövründə bütün xalqımız bir amal ətrafında birləşdi və həmin birlik bu gün də bizim ən böyük gücümüzdür".

Natiq vurğulayıb ki, Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi həyatında mühüm yer tutaraq dövlətçilik ideyalarının təbliğinə, milli həmrəyliyin gücləndirilməsinə və gənc nəslin vətənpərvərlik ruhunda yetişməsinə böyük töhfələr verib: "Partiyanın bu istiqamətdə gördüyü işlər gənclərə Vətən sevgisinin aşılanması və Zəfər tariximizin təbliği baxımından böyük əhəmiyyət daşıyır. Çünki bu günün gəncləri sabah ölkəmizin taleyinə cavabdeh olacaq nəsildir. Onlar Qələbəmizin hansı çətinliklər hesabına qazanıldığını bilməli, şəhidlərimizin xatirəsinə və qazilərimizin fədakarlığına daim hörmətlə yanaşmalıdırlar. İndi əsas işimiz ölkəmizi daha da gücləndirməkdir. Bunun üçün Prezident İlham Əliyevin ətrafında sıx birləşməli, ölkəmizin uğurlarını qorumalı və yeni nailiyyətlərə birlikdə imza atmalıyıq. Şəhidlərimizin bizə əmanət etdiyi bu Vətəni qorumaq, qazandığımız Zəfəri daim yaşatmaq və gələcək nəsillərə çatdırmaq hamımızın müqəddəs borcudur. Arzum budur ki, övladlarımız Azərbaycanı daim sülh, əmin-amanlıq və inkişaf şəraitində görsünlər, üçrəngli bayrağımız hər zaman yüksəklərdə dalğalansın".

Şəhid polkovnik-leytenant Sənan Axundovun həyat yoldaşı, 34 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru Nəcibə Axundova isə çıxışında qeyd edib ki, Zəfər Günü sadəcə təqvimdə qeyd olunan bir tarix deyil: "Bu gün xalqımızın birliyinin, iradəsinin, Vətən sevgisinin və mübarizə əzminin təntənəsidir. Bu gün Azərbaycan xalqının illərlə qəlbində yaşatdığı torpaq həsrətinin sona çatdığı, milli qürurumuzun və tarixi ədalətin bərpa olunduğu gündür. Bu şanlı Zəfərin qazanılmasında Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyətli rəhbərliyi, Azərbaycan Ordusunun gücü və xalqımızın sarsılmaz birliyi müstəsna rol oynayıb. Onun hər səhifəsində qəhrəman oğullarımızın qanı, canı, fədakarlığı, anaların duaları, ataların qüruru, ailələrin səbr və dözümü var. Bu gün azad səma altında qalib xalqın nümayəndələri kimi bir araya gəlmişiksə, bunu ilk növbədə Vətən uğrunda həyatını fəda edən şəhidlərimizə, sağlamlığını itirən qazilərimizə və torpaqlarımızın azadlığı uğrunda mübarizə aparan bütün qəhrəmanlarımıza borcluyuq".

Nəcibə Axundova bildirib ki, minlərlə qəhrəmanımızın bizə əmanət etdiyi ən böyük dəyər azad, müstəqil və suveren Azərbaycandır: "Bizim borcumuz bu əmanəti qorumaq, şəhidlərimizin xatirəsini yaşatmaq və onların uğrunda canlarından keçdikləri ölkəni daha da inkişaf etdirməkdir. Mən, eyni zamanda, bir pedaqoq kimi hesab edirəm ki, Zəfər Gününün gənc nəslə çatdırılması xüsusi əhəmiyyət daşıyır. Çünki məktəb yalnız bilik verən məkan deyil, həm də şəxsiyyətin, vətəndaşlıq mövqeyinin və Vətən sevgisinin formalaşdığı yerdir. Biz uşaqlarımıza Zəfər tarixini öyrədərkən onlara yalnız döyüşlərdən, hərbi uğurlardan danışmırıq. Biz onlara birliyin gücünü, milli həmrəyliyin əhəmiyyətini, torpağa bağlılığı və məsuliyyətli vətəndaş olmağın dəyərini aşılayırıq. İstəyirik ki, onlar bayrağımıza baxanda qürur duysunlar, şəhidlərimizin adını eşidəndə ehtiramla baş əysinlər, ölkəmizin gələcəyi üçün öz bilik və bacarıqları ilə çalışsınlar. Bu gün qalib Azərbaycanın vətəndaşları olaraq üzərimizə düşən vəzifə milli birliyi qorumaq, ölkəmizin inkişafına töhfə vermək və Zəfərimizin əbədi olmasına çalışmaqdır".

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra 8 Noyabr - Zəfər Gününə həsr edilmiş konsert proqramı təqdim olunub.







Güclü Amerika naminə: Trampın siyasi kursu və konqres uğrunda mübarizə

Noyabrın 3-də ABŞ-da keçiriləcək aralıq seçkilər ölkənin siyasi həyatında mühüm mərhələ olacaq. Bu gün amerikalılar Konqresin Nümayəndələr Palatasının bütün 435 üzvünü, Senatın 100 yerindən 35-i üzrə senatorları, eləcə də 36 ştatın qubernatorlarını seçəcəklər. ABŞ siyasi sistemində prezident seçkilərindən iki il sonra keçirilən bu səsvermə aralıq seçkilər adlanır. Onun nəticələri təkcə qanunverici hakimiyyətin tərkibini müəyyənləşdirməyəcək, həm də prezident Donald Trampın qarşıdakı iki ildə siyasi fəaliyyət imkanlarına təsir göstərəcək. Tramp 2024-cü ildə Ağ Evə qayıdarkən amerikalılara iqtisadi canlanma, sərhəd təhlükəsizliyinin gücləndirilməsi, milli sənayenin inkişafı, yeni iş yerlərinin yaradılması və ABŞ-ın beynəlxalq mövqeyinin möhkəmləndirilməsi vədlərini vermişdi. Onun tərəfdarları bu istiqamətləri ölkənin əvvəlki gücünü bərpa etmək siyasətinin təməli kimi qiymətləndirirlər. İndi isə seçicilər həmin vədlərin nəticələrini gündəlik həyatlarında görmək istəyirlər. Ərzaq məhsullarının qiyməti, yanacaq xərcləri, mənzil, səhiyyə, iş imkanları və ailə büdcəsi seçki müzakirələrinin mərkəzinə çevrilib.

ABŞ-da keçirilən ictimai rəy sorğuları da eyni mənzərənin müxtəlif tərəflərini üzə çıxarır. "Reuters" xəbər agentliyi ilə Ipsos araşdırma şirkətinin oktyabrın 22-26-sı arası apardığı sorğuda Trampın fəaliyyətini bəyənənlərin payı 32 faiz olub. Qeydiyyatlı seçicilər arasında Konqres seçkiləri üzrə demokratlar 47 faiz, respublikaçılar isə 36 faiz dəstək alıblar. Səsverməyə qatılacağı gözlənən seçicilər arasında fərq 53 faizlə 44 faiz təşkil edib. Sorğuda iştirak edənlərin 73 faizi yaşayış xərclərinin yanlış istiqamətdə dəyişdiyini bildirib. Bu nəticələr iqtisadi məsələlərin seçki qərarına necə təsir etdiyini göstərir. "Pew Research Center"-in sentyabrın 28-dən oktyabrın 4-dək ABŞ sakinləri arasında keçirdiyi araşdırma isə Trampa münasibətdə daha mürəkkəb mənzərə ortaya qoyur. Mərkəzin məlumatına görə, respondentlərin 35 faizi prezidentin iqtisadiyyatla bağlı düzgün qərarlar qəbul edə biləcəyinə çox və ya müəyyən qədər əmin olduğunu bildirib. Lakin respublikaçılar və onlara meyilli seçicilər arasında bu göstərici 67 faizdir. İmmiqrasiya məsələsində həmin qrupun 77 faizi, xarici siyasətdə isə 67 faizi Trampın qərarvermə qabiliyyətinə güvəndiyini ifadə edib. Prezidentin icra hakimiyyətini idarə etmək bacarığına Respublikaçıların 72 faizi etimad göstərib. Bu rəqəmlər Trampın öz siyasi elektoratı daxilində mühüm dəstəyə malik olduğunu göstərir. Eyni zamanda, həmin dəstəyin müxtəlif məsələlər üzrə eyni səviyyədə qalmadığını da nəzərə almaq lazımdır.

Sorğuların göstərdiyi mənzərə: Trampın dayaqları və seçicilərin gözləntiləri

Trampa münasibətdə fərqli nəticələr göstərən araşdırma şirkətlərinin məlumatlarına ayrıca diqqət yetirmək lazımdır, çünki ictimai rəy sorğuları eyni sualları, eyni seçici qruplarını və eyni metodologiyanı əhatə etmir. Bir şirkət prezidentin ümumi fəaliyyətini qiymətləndirir, digəri konkret siyasət sahələrində ona olan etimadı ölçür, başqa bir araşdırma isə seçicilərin Konqresdə hansı partiyanın çoxluq təşkil etməsini istədiyini öyrənir. Məsələn, "Rasmussen Reports"-un oktyabrın 30-na olan gündəlik göstəricilərində Trampın fəaliyyətini bəyənənlərin payı 41 faiz, bəyənməyənlərin payı isə 57 faiz göstərilib. Bu nəticə "Reuters/Ipsos" sorğusundakı 32 faizlik göstəricidən yüksəkdir. RMG Research şirkətinin oktyabrın 19-27-də 2 min qeydiyyatlı seçici arasında apardığı sorğuda isə Trampın fəaliyyətini dəstəkləyənlərin payı 43 faiz, narazı olanların payı 55 faiz olub. Bu iki araşdırma prezidentin dəstək bazasının mövcudluğunu və bəzi sorğularda onun reytinqinin daha yüksək ölçüldüyünü göstərir.

Harvard Universiteti ilə Harris Pollun birgə keçirdiyi oktyabr sorğusunda Trampın fəaliyyətini bəyənənlərin payı 39 faiz, bəyənməyənlərin payı 59 faiz olub. "Economist/YouGov" araşdırmasında da prezidentin fəaliyyəti ilə bağlı 40 faizlik müsbət, 58 faizlik mənfi qiymətləndirmə qeydə alınıb. Bu nəticələr bir məqamı aydın göstərir: Trampın tərəfdarları siyasi səhnədə fəal mövqedədirlər, lakin ölkə üzrə ümumi ictimai rəy müxtəlif istiqamətlərə bölünüb. Buna görə də bir sorğunun nəticəsini bütün Amerika xalqının mövqeyi kimi təqdim etmək düzgün olmaz. Trampın siyasi dayaqlarını qiymətləndirərkən onun seçicilər qarşısında irəli sürdüyü əsas vədləri də unutmaq olmaz. Sərhəd təhlükəsizliyi, qeyri-qanuni immiqrasiyaya qarşı mübarizə, vergi siyasəti, Amerika istehsalının təşviqi və enerji müstəqilliyi respublikaçıların seçki kampaniyasının mühüm istiqamətləridir. "Pew Research Center"-in nəticələrində respublikaçıların 77 faizinin Trampın immiqrasiya məsələsində düzgün qərarlar qəbul edə biləcəyinə güvənməsi bu mövzunun onun elektoratı üçün nə qədər əhəmiyyətli olduğunu göstərir. Trampın tərəfdarları hesab edirlər ki, sərhədlərə nəzarətin gücləndirilməsi və yerli istehsalın təşviqi uzunmüddətli perspektivdə ölkənin iqtisadi və təhlükəsizlik maraqlarına xidmət edir. Digər tərəfdən, iqtisadiyyat və yaşayış xərcləri respublikaçılar üçün ciddi mübahisə mövzusu olaraq qalır. Demokratlar bu vəziyyətdən istifadə edərək Konqresdə nəzarəti gücləndirməyə, səhiyyə xidmətlərinin əlçatanlığını qorumağa və ailələrin gündəlik xərclərini azaltmağa yönəlmiş proqramlar irəli sürürlər. Respublikaçılar isə vergi güzəştlərini, sərhəd siyasətini, enerji istehsalının artırılmasını və sənayenin ölkəyə qaytarılmasını müdafiə edirlər. Seçicilər üçün əsas sual sadədir: hansı siyasi yanaşma onların həyatında daha tez və daha real dəyişiklik yarada bilər?

Seçki kampaniyasının diqqət çəkən mövzularından biri də İran ətrafında yaranmış hərbi-siyasi vəziyyət və bunun ABŞ iqtisadiyyatına mümkün təsirləridir. Yaxın Şərqdə gərginliyin artması, hərbi xərclər, enerji bazarındakı dəyişikliklər və yanacağın qiyməti amerikalı ailələrin gündəlik həyatına birbaşa təsir edə bilər. Seçicilər belə suallar verirlər: ABŞ xarici münaqişələrdə hansı həddə qədər iştirak etməlidir? Milli təhlükəsizliklə iqtisadi sabitlik arasında tarazlıq necə qorunmalıdır? Konqresin hərbi qərarlara nəzarəti hansı səviyyədə olmalıdır? Respublikaçılar Trampın təhlükəsizlik siyasətini və İranın nüvə proqramına qarşı sərt mövqeyini müdafiə edirlər. Demokratlar isə hərbi əməliyyatların hüquqi əsasları, maliyyə yükü və Konqresin razılığı məsələlərini gündəmə gətirirlər.



Tarixi təcrübə də aralıq seçkilərin prezident üçün nə qədər ciddi sınaq olduğunu göstərir. Kaliforniya Universitetinin Santa-Barbara bölməsində fəaliyyət göstərən The American Presidency Project layihəsinin 1934-2022-ci illəri əhatə edən hesablamalarına əsasən, prezidentin mənsub olduğu partiya aralıq seçkilərdə Nümayəndələr Palatasında orta hesabla 27, Senatda isə 3 yer itirib. Bununla belə, tarixdə istisnalar da olub. 2018-ci ildə, Trampın ilk prezidentlik dövründə respublikaçılar Nümayəndələr Palatasında 41 yer itirsələr də, Senatda iki yer qazanmışdılar. Deməli, ümumi siyasi əhval-ruhiyyə ilə yanaşı, ayrı-ayrı ştatların və seçki dairələrinin xüsusiyyətləri də nəticəyə təsir göstərir.

Nümayəndələr Palatası uğrunda mübarizənin gərginliyini "Cook Political Report" nəşrinin oktyabrın 30-da yenilənmiş qiymətləndirməsi də göstərir. Nəşr 435 seçki dairəsini rəqabət səviyyəsinə görə qruplaşdırıb: 186 dairə demokratlar üçün, 164 dairə isə respublikaçılar üçün möhkəm mövqe hesab olunur. Daha 18 dairə demokratların üstünlüyü, 17 dairə respublikaçıların üstünlüyü, 18 dairə isə açıq rəqabət kateqoriyasına daxil edilib. Burada vacib məqam odur ki, bu rəqəmlər seçkinin nəticələri yox, analitik qiymətləndirmələrdir. Nümayəndələr Palatasında çoxluq qazanmaq üçün 218 yer tələb olunur. Buna görə də rəqabətli dairələrdə namizədlərin şəxsi nüfuzu, yerli problemlər və seçicilərin fəallığı xüsusi əhəmiyyət daşıyır.

Trampın xarici siyasəti və Azərbaycanla münasibətlər: seçkilərin hüdudlarından kənara çıxan məsələ

ABŞ-da aralıq seçkilər yalnız ölkənin daxili siyasi mübarizəsi baxımından əhəmiyyət daşımır. Vaşinqtonun xarici siyasət kursu, müttəfiqlərlə münasibətləri, enerji təhlükəsizliyi və beynəlxalq münaqişələrə yanaşması da bu siyasi prosesdən təsirlənə bilər. Prezidentin Konqresdə güclü siyasi dayaqlara malik olması onun qanunvericilik təşəbbüslərini həyata keçirməsinə və xarici siyasət prioritetlərini müdafiə etməsinə əlavə imkan yaradır. Konqresdə qüvvələr nisbətinin dəyişməsi isə administrasiyanın qərarlarının müzakirəsinə və maliyyələşdirilməsinə təsir göstərə bilər. Bu baxımdan Tramp administrasiyasının Azərbaycanla münasibətlərində son dövrdə baş verən dəyişikliklər xüsusi diqqətə layiqdir. 2025-ci ilin avqust ayının 8-də prezident Donald Tramp Ağ Evdə Azərbaycan Prezidenti İlham Əliyevi və Ermənistanın baş naziri Nikol Paşinyanı qəbul etdi. Vaşinqtonda keçirilən üçtərəfli görüşün nəticəsində Azərbaycan və Ermənistan liderləri birgə Bəyannamə imzaladılar, sülh sazişinin razılaşdırılmış mətninin paraflanması ilə bağlı addım atıldı. Həmin görüşdə Trampın iştirakı və diplomatik təşəbbüsü Cənubi Qafqazda sülh gündəliyinin irəliləməsinə mühüm siyasi təkan verdi.

Bu prosesin davamı olaraq 2026-cı ilin fevral ayının 10-da Bakıda Azərbaycan Prezidenti İlham Əliyev və ABŞ-ın vitse-prezidenti Cey Di Vens Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Xartiyasını imzaladılar. Sənəd iki ölkə arasında enerji, nəqliyyat, iqtisadiyyat, süni intellekt, rəqəmsal texnologiyalar və təhlükəsizlik sahələrində əməkdaşlığın genişləndirilməsini, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşılıqlı dəstəyin təsdiqlənməsini nəzərdə tutur. Orta Dəhlizin inkişafı və TRIPP layihəsi də sənəddə xüsusi yer tutur. Bu istiqamətlər Azərbaycanın regional nəqliyyat və enerji qovşağı kimi mövqeyinin güclənməsi baxımından əhəmiyyətlidir. Trampın Azərbaycanla münasibətlərə yanaşmasının müsbət tərəfi məhz bu konkret nəticələrdə görünür. Ağ Evdə Azərbaycan Prezidentinin qəbul edilməsi, Vaşinqton Bəyannaməsinin imzalanmasına ev sahibliyi, ardınca Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması və imzalanması ikitərəfli əlaqələrin yeni mərhələyə keçməsinə şərait yaradıb. Xüsusilə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün sənəddə açıq şəkildə təsdiqlənməsi ölkəmiz üçün mühüm diplomatik əhəmiyyət daşıyır. Bu addımlar Tramp administrasiyasının Azərbaycanla münasibətlərə strateji əməkdaşlıq prizmasından yanaşdığını göstərir.

Noyabrın 3-də amerikalı seçicilər Konqresin gələcək tərkibini müəyyənləşdirərkən, əslində, Tramp administrasiyasının siyasətinə münasibətlərini də ifadə edəcəklər. Respublikaçılar öz proqramlarına və prezidentin siyasi xəttinə güvənərək mövqelərini qorumağa çalışırlar. Demokratlar isə yaşayış xərcləri, səhiyyə və administrasiyaya parlament nəzarəti məsələlərini önə çəkirlər. Hansı tərəfin üstünlük qazanacağını yalnız seçicilərin səsi müəyyən edəcək. Ancaq bir məsələ aydındır: ABŞ-da daxili siyasi mübarizə nə qədər gərgin olsa da, Vaşinqtonun Azərbaycanla qurduğu strateji tərəfdaşlığın davamlı inkişafı həm ölkəmizin milli maraqları, həm də regionda sülh, təhlükəsizlik və iqtisadi əməkdaşlıq baxımından mühüm əhəmiyyət daşıyır. Trampın Azərbaycanla münasibətlərdə atdığı konkret diplomatik addımlar bu əməkdaşlığın gələcəyi üçün müsbət əsas yaradıb.



Kəramət Qənbərov,
Beynəlxalq hüquq üzrə ekspert

Ermənistan KTMT-dən qovulur?

Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Taatbek Masadıkov Ermənistanın faktiki olaraq bu təşkilatdan çıxdığını bəyan edib. Təşkilatın baş katibinin jurnalistlərə bildirdiyinə görə, İrəvan daxili təsdiq üçün üzv dövlətlərə göndərilən sənədləri almağa davam edir. Buna cavab olaraq, Ermənistan tərəfi müzakirələrdə və qərar qəbuletmədə iştirak etmədiyini, lakin onların məhdud formatda qəbul edilməsinə etirazı olmadığını bildirir. O, Ermənistan nümayəndəsinin KTMT Daimi Şurasının həftəlik iclaslarında iştirak etdiyini və hesabatları dinlədiyini qeyd edib. Lakin respublika təşkilatın əsas tədbirlərində və təlimlərində iştirak etmir.

Noyabrın 11-də İrəvanı nə gözləyir?

Baş katib, həmçinin Ermənistanın üzvlüyünün noyabrın 11-də Moskvada keçiriləcək KTMT Kollektiv Təhlükəsizlik Şurasının sessiyasında nəzərdən keçirilə biləcəyini istisna etməyib. O əlavə edib ki, sədrlik edən ölkə və ya təşkilatın digər üzv dövləti müvafiq təklif verərsə, bu mümkün ola bilər. T.Masadıkov mövcud vəziyyəti KTMT Nizamnaməsinin 25-ci maddəsi ilə əlaqələndirib. O, üzvlük haqqının ödənilməməsinin və kvota vəzifələrinin doldurulmamasının səsvermə hüquqlarının itirilməsinə səbəb ola biləcəyini izah edib.

Bir müddət əvvəl isə Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə çıxış edərək, respublikanın KTMT-dən çıxarılmasını dəstəklədiyini və bu baş verərsə, məmnun olacağını bildirmişdi. O, həmçinin qeyd edib ki, İrəvan növbəti beş il ərzində də təşkilatın işində fəal iştirak etmək niyyətində deyil.

Ermənistanın 2022-ci ilin payızından etibarən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında fəaliyyətini faktiki olaraq dayandırdığı məlumdur. Rəsmi İrəvan bu məqsəd üçün praktiki addımlar da atıb. Məsələn, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibinin müavini kvotasından imtina edilib. Həmçinin təşkilatın bu ölkədə keçirilməsi nəzərdə tutulan hərbi təlimlər ləğv edilib. Bundan əlavə, baş nazir N.Paşinyan nümayişkəranə şəkildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının sammitlərinə qatılmır. Eyni zamanda, Ermənistan KTMT-yə üzvlük haqqı ödəməyi də dayandırıb. Bir sözlə, rəsmi İrəvan bu təşkilatda fəaliyyətini "dondurub".



Xatırladaq ki, bir müddət öncə Ermənistan növbəti dəfə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının "əsas tədbir"ində iştirak etməməklə Rusiyadan və onun himayəsi altında olan təşkilatdan uzaqlaşmaq xəttini tutduğunu bir daha nümayiş etdirdi. Belə ki, sentyabrın 13-dən etibarən Rusiya və Qazaxıstanda KTMT-nin hərbi təlimləri keçirilib. Təlimlərdə Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan hərbçiləri iştirak ediblər. Oktyabrın 3-dək davam edən bu hərbi tədbirlə Mərkəzi Asiya regionunun Kollektiv Sürətli Yerləşdirmə Qüvvələrinin dağlıq-səhra ərazisi şəraitində döyüş əməliyyatları məşq edilib. Pilotsuz təyyarələrə qarşı mübarizə, yüksəkdəqiqlikli silahların tətbiqi və sərhəd xidmətləri ilə koordinasiyaya xüsusi diqqət yetirilib. Təlimlərə təxminən 2000 hərbçi və 350-dən çox texnika, habelə müxtəlif tipli PUA-lar, robototexnika kompleksləri cəlb olunub. KTMT-nin Birləşmiş Qərargahının rəisi general-polkovnik Andrey Serdyukov təlimləri təşkilatın builki hazırlığının "əsas tədbiri" adlandırıb. O, manevrlərin keçirilməsinin aktuallığını dünyada son dərəcə mürəkkəb hərbi-siyasi vəziyyətlə şərtləndirib.

Rəsmi İrəvanın iddiası ondan ibarətdir ki, KTMT Ermənistanın təhlükəsizliyinin təminatında rol oynamır. Ona görə də, təhlükəsizliklə bağlı yeni tərəfdaş axtarışındadırlar. Rəsmi İrəvanın "incikliyi" 2022-ci ilin sentyabrında şərti sərhəddə baş verən hərbi toqquşma zamanı KTMT-nin onu müdafiə etməməsi ilə bağlıdır. Əslində, Paşinyan hakimiyyəti bütün bunlardan ölkəsini Rusiyadan uzaqlaşdırmaq üçün bir bəhanə kimi istifadə edir. Nəzərə alaq ki, Nikol Paşinyan hələ 2017-ci ildə müxalifətdə olarkən ölkəsinin KTMT və Avrasiya İqtisadi İttifaqından çıxmasını tələb edirdi. O bəyan edirdi ki, bu qurumlarda üzvlüyü Ermənistanı inkişaf etdirmir, əksinə, onun suverenliyini məhdudlaşdırır və sərt asılılıq vəziyyətinə salır. Ovaxtkı müxalifət liderinin qənaətincə, ölkənin KTMT-də olması Ermənistanın "milli təhlükəsizliyi üçün ən ciddi təhlükə" yaradır. 2018-ci ildə hakimiyyətə gəldikdən sonra da Paşinyan iqtidarının Rusiyaya deyil, Qərb istiqamətinə yönəldiyi aşkar faktdır. Sadəcə, İkinci Qarabağ müharibəsində KTMT-nin, xüsusilə Rusiyanın Ermənistana rəsmi dəstək verməməsi Paşinyan üçün bəhanəyə çevrilib. Hadisələr Azərbaycan ərazisində getdiyinə, ölkəmiz öz torpaqlarını işğalçılardan təmizlədiyinə görə təşkilat Ermənistan-Azərbaycan münaqişəsində iştirakını heç cür əsaslandıra bilmirdi. Digər tərəfdən, KTMT-yə üzv dövlətlər Azərbaycanın ərazi bütövlüyünü daim müxtəlif səviyyələrdə müdafiə ediblər. Habelə, həmin ölkələrlə Azərbaycan arasında ərazi bütövlüyü və suverenliyi dəstəkləməyə, əməkdaşlığa dair anlaşmalar mövcuddur. Bu kimi səbəblərdən Ermənistanın KTMT-dən narazılığının səbəbinin Azərbaycanla bağlı olduğu cəfəngiyyatdır.

Paşinyanın bəhanəsi...

İrəvan KTMT-nin "əsas tədbirinə" qatılmayıb

Rəsmi İrəvanın bu tədbirdə də iştirakdan imtinası Paşinyan hakimiyyətinin qərarlığının göstəricisi sayıla bilər. Lakin Paşinyan yəqin ki, Rusiyadan çəkindiyi üçün rəsmi olaraq KTMT-ni tərk edə bilmir. Baş katib Taatbek Masadıkovun məlum açıqlaması isə təşkilat üzvlərinin nə vaxtsa səbr kasasının daşa biləcəyinə işarə edir. Ola bilər ki, KTMT üzvləri Ermənistanın "nazı ilə oynamağa" son versin. Digər tərəfdən, Ermənistanın KTMT-dən çıxarılması təşkilatı daha da zəiflədə bilər. Vaxtaşırı olaraq məsələ ilə bağlı Moskvanın İrəvanı tənqid etməsi də Paşinyan hakimiyyətinə təzyiq məqsədi daşıyır.

Beləliklə, Rusiya Cənubi Qafqazda özünün forpostu olan Ermənistanı itirməkdən ciddi narahatdır. Digər tərəfdən, "rus NATO"su olan KTMT-nin gələcəyinin sual altına düşməsi narahatlığı da Moskvanı İrəvana qarşı sərt açıqlamalar verməyə sövq edir. Çünki Ermənistanın KTMT-dən uzaqlaşması yaxın gələcəkdə presedent yarada bilər ki, bu da təşkilat üçün yaxşı heç nə vəd etmir.

Nardar BAYRAMLI

“OPEC+” qərarını dəyişmədi

Neft hasilatının sabit saxlanması məqsədəuyğun hesab edilib

“OPEC+” ölkələri (Rusiya, Səudiyyə Ərəbistanı, Əlcəzair, Küveyt, İraq, Qazaxıstan və Oman) noyabrın 1-də videokonfrans formatında keçirilən görüşündə qlobal neft bazarındakı vəziyyət və onun inkişaf perspektivləri müzakirə olunub. “Neft yeddiliyi” 2026-cı ilin sentyabr ayı üçün müəyyən olunmuş hasilat səviyyəsinin cari və dekabr ayında da saxlanılması barədə qərar qəbul edib. Beləliklə, “OPEC+” qrupu Əməkdaşlıq Bəyannaməsi üzrə öhdəliklərin tam yerinə yetirilməsinə kollektiv sadiqliklərini bir daha vurğulayıb.

“OPEC+” ölkələri bununla neft hasilatı kvotasını gündəlik təxminən 36 milyon barrel artırır. Neftin qiymətləri yüksələndə adətən hasilat və nəql artırılır.

“OPEC+” ölkələri neftin qiymətləri ucuzlaşanda, hazırkı ssenariyə əsasən, yanacağın qiymətinin orta satış 70 dollardan aşağı düşməsi tendensiyası artanda hasilatı azaltmaq qərarı verir.

Son 2 ildə dünya bazarında neftin orta satış qiyməti 80-90 dollar civarında dövr etdiyindən “OPEC+” ölkələri neftin hasilatını artırmaq yox, nisbi azaltmaq kursu üzrə hərəkət edib. Yaxın Şərqdə və Fars körfəzində baş verən son hadisələr və Hörmüz boğazının bağlanmasından sonra aprelin əvvəlində hasilatı 200 min barelə yaxın artıran “OPEC+” ölkələri bununla da qiymətlərin sabitliyinin təmin edilməsi üçün mühüm addımlardan birini atdı.

Qiymətlərin 80-90 dollar olması münasib hesab edilir

“OPEC+” enerji ittifaqı adətən qlobal enerji bazarlarında baş verən fraqmentasiyalara uyğun qərarlar qəbul edir, bazarda nizamlayıcı rol oynamaq üçün yanacağın tədarük kvotalarını müəyyənləşdirir. Alyans üzvlərinin siyasətində neftin baha qiymətə satılması arzuolunan hesab edilmir, tədarükçülər orta qiymət zənbilinin 80-90 dollar arasında olmasını münasib hesab edərək bazara tələb olunan kvotaya uyğun neft çıxarır. Neftin qiymətləri yüksələndə adətən hasilat və nəql artırılır.



Azərbaycan razılaşmanı dəstəkləyir

“OPEC +” ölkələrinin anlaşmasına əsasən, Azərbaycanın gündəlik nəql kvotası əvvəlki həcmdə - təxminən 450-530 min barel müəyyən edilib. Alyans ölkələrinin razılaşması çərçivəsində Azərbaycanın 2026-cı il üçün gündəlik neft hasilatı kvotasını 551 min barelədək artırması qərara alınsa da, son 3 ayda faktiki hasilat həmin rəqəmdən 90 min barel az olub. Belə ki, bu ilin ötən üç rübü ərzində gündəlik neft hasilatı orta hesabla 450 min barel təşkil edib.

Mövcud kvota ölkəmiz üçün orta qiymət şkalasının tənzimlənməsində qənaətbəxş hesab edilir. Ümumiyyətlə, respublikamız istər “OPEC”in, istərsə də “OPEC+”in tədbirlərində qəbul edilən qərarlara həmişə hörmətlə yanaşıb və rəsmi Bakı üçün kvotanın azaldılması barədə dəfələrlə irəli sürülmüş təklifləri tam yerinə yetirib.

Azərbaycan alyansda etibarlı tərəfdaş və nümunəvi tədarükçü kimi təkcə neft ehtiyatlarının nəqlini deyil, həm də müasir qlobal bazarın əsas tələbatlarından birinə çevrilən alternativ yanacaq mənbələrinin səfərbər olunması və koalisiyalarla birlikdə nəqlində təşəbbüskarlıq edir. Xüsusilə də son dövrlərdə “yaşıl enerji” üzrə layihələrdə “OPEC”in ən iri təchizatçıları olan BƏƏ və Səudiyyə Ərəbistanı ilə “yaşıl enerji” konsepsiyasında yaxın tərəfdaşlıq və birgə günəş və külək stansiyalarının qurulması bu fəallığın nümunəsi kimi qiymətləndirilir. Bunu “OPEC”in baş katibi Haysam əl-Qays də etiraf edir və bildirib ki, kartel ölkələri ilə Azərbaycan arasında əlaqələri hər zaman yüksək olub, hazırkı əməkdaşlıq isə “qızıl dövr”ünü yaşayır. “OPEC”in rəhbərliyi qlobal səviyyədə yanacaq emissiyasının azaldılması və yaşıl hidreogenə keçidlə bağlı beynəlxalq təşəbbüslərin dəstəkləyicisi olan Azərbaycanın səylərini də yüksək dəyərləndirib.

Noyabrın sonunda yeni qərar veriləcək

“OPEC+” formatında neft bazarındakı vəziyyət növbəti görüşdə - noyabrın 29-da keçirilməsi nəzərdə tutulan konfransda müzakirə olunacaq. Alyans ölkələrinin istehsal və nəql kvotasının artırılıb-artırılmayacağı qiymətlərin və istehlakın səviyyəsinə uyğun qiymətləndirilərək veriləcək. Əgər neftin qiyməti sabit qalarsa, hasilatın azaldılmasına qərar verilməyəcək. Qiymətlərdə kəskin enişlərin baş vermə tendensiyası müşahidə olunarsa, risklər nəzərə alınaraq hasilatın azaldılmasına qərar verilə bilər.

Yeri gəlmişkən, ABŞ-ın Enerji İnformasiya Administrasiyası cari ilin ikinci yarısında neft qiymətlərinə dair ehtimallarını açıqlayıb. Məlumata görə, “Brent” markalı xam neftin bir barelinin orta qiyməti 78,84 dollar olacaq, “Light” markalı xam neftin orta qiymətinin isə cari ildə 73,61 dollar olacağı gözlənilir.

E.CƏFƏRLİ

Bolqarıstanda jurnalist dövlət başçısı seçilib

İliana Yotova həm də, bu ölkənin ilk qadın Prezidenti kimi tarixə düşdü

İliana Yotova noyabrın 1-də Bolqarıstanda keçirilən prezident seçkilərinin ikinci turunda səslərin 57,6 faizini toplayaraq qalib gəlib. Bu barədə ölkənin Mərkəzi Seçki Komissiyası bülletenlərin 99,68 faizinin hesablanmasından sonra məlumat yayıb. Yotova və vitse-prezidentliyə namizəd Kiril Valçev rəqibləri Andrey Gyurov və Georgi Kandevi məğlub ediblər. Sonuncular səslərin 39,3 faizini əldə ediblər. Məğlubiyyətini etiraf edən Andrey Gyurov qalibləri təbrik edib. Beləliklə, İliana Yotova Bolqarıstan tarixində seçkilər yolu ilə dövlət başçısı seçilən ilk qadın olub.

İnamlı qələbə...

Xatırladaq ki, Bolqarıstanda oktyabrın 25-də prezident seçkilərinin birinci turu keçirilmişdi. Həmin seçkilərin nəticələrinə əsasən, İliyana Yotova və Andrey Qyurovun rəhbərlik etdiyi namizəd cütləri ikinci tura yüksəlmişdi. Yotova və vitse-prezidentliyə namizəd Kiril Valçev 34,69 faiz, Qyurov və Georgi Kandev isə 31,98 faiz səs toplamışdı.

Xatırladaq ki, Bolqarıstan Konstitusiyasına əsasən, prezidentliyə namizədin birinci turda qalib gəlməsi üçün səslərin yarıdan çoxunu toplaması və səsvermə hüququ olan seçicilərin yarıdan çoxunun seçkidə iştirak etməsi tələb olunur. Bu şərtlər yerinə yetirilmədikdə, ən çox səs toplamış iki namizədin iştirakı ilə yeddi gün ərzində ikinci tur keçirilir.

Qeyd edək ki, Bolqarıstanda etibarlı şəxsiyyət vəsiqəsi olmayan vətəndaşların noyabrın 1-də keçirilən prezident seçkilərinin ikinci turunda iştirak etməsi üçün xüsusi sertifikatlar verilib. Bu barədə ölkənin Daxili İşlər Nazirliyi məlumat yayıb. Bildirilib ki, şəxsiyyət vəsiqəsini itirən, sənədi oğurlanan və ya zədələnən, eləcə də sənədinin etibarlılıq müddəti başa çatan vətəndaşlar səsvermə hüququndan istifadə etmək üçün xüsusi sertifikat almaq hüququna malikdir. Yeni şəxsiyyət vəsiqəsi üçün müraciət edən şəxslərə sənədin daha tez hazırlanması üçün dəstək göstərilib. Bu səbəbdən oktyabrın 30-dək yeni sənəd ala bilməyən vətəndaşlar səsvermə sertifikatı üçün müraciət edərək seçkidə iştirak ediblər.



İliana Yotova kimdir?

Bəs Bolqarıstanın ilk qadın prezidenti kimdir? İliana Yotova 24 oktyabr 1964-cü ildə Bolqarıstanın paytaxtı Sofiyada anadan olub. Atası Malin Todorov həkim və şəhər xəstəxanasının baş həkimi, həmçinin 1999-2003-cü illərdə Slivnitsa şəhərinin meri vəzifəsində çalışıb. İlliana orta təhsilini Sofiyadakı Fransız liseyində başa vurub. 1989-cu ildə Sofiya Universitetindən bolqar və fransız filologiyası üzrə bakalavr dərəcəsi alıb. Daha sonra Strasburq Milli İdarəçilik məktəbində və Strasburq Universitetinin Avropa Araşdırmaları institutunda təhsilini davam etdirib. Yotova fransız, rus və ingilis dillərini bilir.

Karyerasına gəlincə, 1980-ci illərdə İliana Yotova Sofiyadakı “Vəftizçi Müqəddəs İohann” xəstəxanasında tibb bacısı kimi işə başlayıb. 1990-1997-ci illər arasında Bolqarıstan Milli televiziyasında müxbir, redaktor, rejissor, xəbər və aktual mövzulu verilişlərin aparıcısı kimi çalışıb, həmçinin Xəbərlər və Aktual mövzular departamentinin direktoru, 1997-ci ildə Bolqarıstan Sosialist Partiyasının mətbuat xidmətinin rəhbəri olub.

Siyasi karyerasına gəlincə, 2005-ci ildə Bolqarıstanda keçirilən ümumi seçkilərdə Yotova Milli Assambleyaya deputat seçilib və 2007-ci ilə qədər bu vəzifədə çalışıb. Səlahiyyət müddəti ərzində o, Frankofoniya Parlament Assambleyasındakı Bolqarıstan nümayəndə heyətinə rəhbərlik edib, həmçinin Avropa İttifaqı Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü olub. İliana Yotova 2007-ci və 2014-cü illərdə Avropa Parlamentinə də üzv seçilib. Orada o, Sosialistlər və Demokratların Proqressiv Alyansı qrupuna daxil idi. Yotova parlamentdə Daxili Bazar və İstehlakçıların müdafiəsi komitəsi (2007-2009), Balıqçılıq komitəsi (2009-2014) və Petisiyalar komitəsində (2009-2014) üzv idi. O, 2012-2013-cü illərdə Mütəşəkkil cinayətkarlıq, Korrupsiya və Çirkli pulların yuyulması üzrə Xüsusi komitənin üzvü olub. 2014-cü il seçkilərindən etibarən Yotova sədr Klod Moraesin rəhbərliyi altında Vətəndaş azadlıqları, Ədliyyə və Daxili İşlər komitəsinin sədr müavini olub. Bu vəzifədə o, 40 000 qaçqının Avropa İttifaqı daxilində ədalətli şəkildə bölüşdürülməsini nəzərdə tutan 2015-ci il hesabatı üzrə öz parlament qrupunun məruzəçisi qismində çıxış edib.

Yotova komitələrdəki fəaliyyəti ilə yanaşı Aİ - Monteneqro Stabilləşmə və Assosiasiya Parlament Komitəsindəki parlament nümayəndə heyətinin sədri, həmçinin Aralıq dənizi Parlament Assambleyasındakı nümayəndə heyətinin üzvü olub. O, həmçinin Avropa Parlamentinin dürüstlük (şəffaflıq, korrupsiya ilə mübarizə və mütəşəkkil cinayətkarlıqla mübarizə) üzrə partiyalararası qrupunun üzvü idi.

Vitse-prezidentlikdən prezidentliyə doğru...

2016-cı ildə Bolqarıstanda keçirilən prezident seçkiləri ərəfəsində İliana Yotova Bolqarıstan Sosialist Partiyası tərəfindən rəsmi olaraq vitse-prezidentliyə namizəd irəli sürüldü və prezidentliyə namizəd Rumen Radevlə birlikdə seçkilərə qatıldı. Vitse-prezident seçildikdən sonra o, Avropa Parlamentinin üzvü vəzifəsindən istefa verdi. Hər ikisinin 2017-ci il yanvarın 19-da andiçməsi oldu və yanvarın 22-də onlar öz vəzifələrinin icrasına başladı. 1 fevral 2021-ci ildə Prezident Radev rəsmi olaraq elan etdi ki, o və İliana Yotova 2021-ci il ümumi seçkilərində ikinci müddətə namizədliklərini irəli sürəcəklər.

19 yanvar 2026-cı il tarixində xalqa müraciətində o vaxtkı prezident Rumen Radev istefa vermək niyyətində olduğunu açıqladı. Ertəsi gün Radev Prezident vəzifəsindən istefasını Konstitusiya Məhkəməsinə təqdim etdi. Üç gün sonra - yanvarın 23-də Konstitusiya Məhkəməsi Radevin istefasını rəsmən qəbul etdi və 2026-cı il yanvarın 23-də, Konstitusiya Məhkəməsinin Rumen Radevin heç bir kənar təzyiq olmadan, könüllü şəkildə verdiyi istefasını təsdiqləməsindən sonra, İliyana Yotova rəsmən Bolqarıstan Prezidentinin səlahiyyətlərinin icrasına başlayıb. Noyabrın 1-də seçkilərin ikinci turunda qələbə qazandıqdan sonra xanım Yotova növbəti müddətə Bolqarıstanın Prezidenti vəzifəsini yerinə yetirəcək.

Nardar BAYRAMLI

Dərinləşən böhran: yeni dünya nizamında köhnə yanaşmaların iflası

Müasir çağırışlar Avropanın siyasi və iqtisadi modelini sınağa çəkir

Yeni dünya nizamının formalaşdığı indiki mərhələdə beynəlxalq münasibətlər sistemində ciddi transformasiya prosesləri gedir. Dövlətlərin siyasi prioritetləri, iqtisadi inkişaf modelləri, təhlükəsizlik strategiyaları və beynəlxalq əməkdaşlıq mexanizmləri dəyişir. Lakin müşahidələr göstərir ki, bu dəyişikliklər bəzi regionlarda, xüsusilə Avropada daha mürəkkəb və ağrılı xarakter alıb. Vaxtilə demokratiyanın, sosial rifahın, insan hüquq və azadlıqlarının əsas müdafiəçisi kimi təqdim olunan Avropa bu gün özünün həmin imicini qorumaqda çətinlik çəkir. İqtisadi durğunluq, artan dövlət borcları, siyasi parçalanma, miqrasiya böhranı və sosial narazılıqlar Avropa İttifaqının gələcəyi ilə bağlı ciddi suallar yaradır.

Xüsusilə Fransada müşahidə olunan proseslər bu mənzərənin diqqətçəkən nümunələrindəndir. Prezident Emmanuel Makronun rəhbərliyi dövründə ölkənin iqtisadi və siyasi problemlərinin dərinləşməsi, hökumət böhranları, büdcə kəsiri və ictimai etimadın zəifləməsi Fransanın Avropadakı ənənəvi nüfuzuna da təsir göstərir. Bu problemlər artıq yalnız bir dövlətin daxili məsələsi olmaqdan çıxaraq bütövlükdə Avropa İttifaqının siyasi və iqtisadi dayanıqlılığına təsir edən amilə çevrilir. Digər tərəfdən, sosial müdafiəyə ehtiyacı olan təbəqələrin vəziyyətinin ağırlaşması, miqrasiya ətrafında qarşıdurmaların artması, etiraz aksiyalarına sərt müdaxilələr və insan hüquqları sahəsində üzə çıxan problemlər Avropanın öz dəyərlərinə münasibətini yenidən müzakirəyə çıxarır. Deməli, yeni dünya nizamında Avropanın əsas problemi yalnız xarici rəqabət və geosiyasi təsir imkanlarının azalması deyil. Daha ciddi məsələ öz daxilində yığılıb qalan problemlərə adekvat siyasi cavab verə bilməməsidir.

Fransanın iqtisadi problemləri...

Avropada müşahidə olunan transformasiyaların ən bariz nümunələrindən biri Fransanın üzləşdiyi iqtisadi və siyasi çətinliklərdir. Uzun illər Avropa İttifaqının aparıcı siyasi və iqtisadi mərkəzlərindən biri hesab edilən Fransa hazırda ciddi maliyyə problemləri, hökumət böhranları və ictimai narazılıqlarla qarşı-qarşıyadır. Xüsusilə dövlət borcunun artması, büdcə kəsirinin yüksək səviyyədə qalması və sosial öhdəliklərin maliyyələşdirilməsi istiqamətində yaranan çətinliklər ölkənin iqtisadi dayanıqlılığı ilə bağlı narahatlıqları artırır.

Fransa Milli Statistika və İqtisadi Tədqiqatlar İnstitutunun (INSEE) məlumatlarına əsasən, 2025-ci ilin sonunda dövlət borcu 3,46 trilyon avroya yüksəlib. Bu, ölkənin ümumi daxili məhsulunun 115,6 faizinə bərabərdir. Büdcə kəsiri isə 152,5 milyard avro təşkil edib. Üstəlik, dövlət borcu bir il ərzində 154,4 milyard avro artıb. Bu göstəricilər Fransanın maliyyə sistemindəki struktur problemlərin miqyasını aydın nümayiş etdirir. Bu vəziyyətin ağır siyasi nəticələri də özünü göstərir. Hökumətlərin tez-tez dəyişməsi, parlamentdə parçalanma və büdcə məsələləri ətrafında kəskin fikir ayrılıqları dövlət idarəçiliyinin effektivliyini zəiflədir. Digər tərəfdən, borca xidmət xərclərinin artması təhsil, səhiyyə, sosial müdafiə və infrastruktur kimi sahələrə ayrılan resurslar üzərində əlavə təzyiq yaradır. Əhalinin sosial vəziyyətinin pisləşməsi isə ictimai narazılıqları gücləndirir.

Fransanın iqtisadi problemləri Avropa İttifaqı üçün də xüsusi əhəmiyyət daşıyır - çünki Fransa Almaniya ilə birlikdə İttifaqın əsas siyasi və iqtisadi dayaqlarından biridir. Belə bir dövlətin maliyyə çətinlikləri ilə üzləşməsi avronun dayanıqlılığı, Avropanın iqtisadi rəqabət qabiliyyəti və ümumi maliyyə intizamı ilə bağlı müzakirələri də aktuallaşdırır. Beləliklə, Fransada baş verənlər təkcə milli iqtisadiyyatın deyil, bütövlükdə Avropa modelinin qarşılaşdığı sınaqlardan xəbər verir.

Böhran Avropada sosial gərginliyi artırır

Avropanın üzləşdiyi digər ciddi problemlərdən biri miqrasiya məsələsidir. Uzun müddət humanizm, multikulturalizm və açıq cəmiyyət prinsiplərini ön plana çəkən Avropa ölkələri indi miqrasiya siyasətinin yaratdığı mürəkkəb çağırışlarla üz-üzədir. Müxtəlif regionlarda baş verən müharibələr, siyasi qeyri-sabitlik, iqtisadi çətinliklər və iqlim dəyişiklikləri insanların Avropaya üz tutmasına səbəb olan əsas amillərdəndir. Bu proses isə qəbul edən ölkələrdə sosial müdafiə, mənzil təminatı, məşğulluq, təhsil və təhlükəsizlik məsələlərini daha da aktuallaşdırır.

Eurostatın 2025-ci ilə dair məlumatları göstərir ki, Avropa İttifaqı ölkələrində ilk dəfə beynəlxalq müdafiə üçün müraciət edənlərin sayı təxminən 669 400 nəfər olub. Bu, 2024-cü illə müqayisədə 27 faiz azdır. Lakin rəqəmlərin azalması problemin aradan qalxması demək deyil. Əksinə, miqrasiya axınlarının ayrı-ayrı ölkələr üzrə qeyri-bərabər bölüşdürülməsi, sərhədlərin mühafizəsi və sığınacaq prosedurları ətrafında fikir ayrılıqları davam edir. 2025-ci ildə İspaniya 141 min, İtaliya 126,6 min, Fransa 116,4 min, Almaniya isə 113,2 min ilk müraciət qəbul edib. Bu beş ölkənin payına İttifaq üzrə bütün ilk müraciətlərin 83 faizi düşüb.



Digər mühüm göstərici qeyri-qanuni sərhəd keçidləri ilə bağlıdır. Avropa Sərhəd və Sahil Mühafizəsi Agentliyinin (Frontex) məlumatına əsasən, 2025-ci ildə Avropa İttifaqının xarici sərhədlərində təxminən 178 min qeyri-qanuni keçid qeydə alınıb. Bu, əvvəlki illə müqayisədə 26 faiz azalma deməkdir. Bununla belə, Aralıq dənizi marşrutunda təhlükəli səfərlər, insan qaçaqmalçılığı və miqrantların həyatını itirməsi problemi qalmaqdadır. Beynəlxalq Miqrasiya Təşkilatının məlumatına görə, 2025-ci ildə Aralıq dənizində 1873 miqrant ölüb və ya itkin düşüb.

Mirasiya problemi siyasi parçalanmanı dərinləşdirir

Məsələnin digər tərəfi isə Avropa cəmiyyətlərində yaranan sosial və siyasi parçalanmadır. Miqrasiya ətrafında müzakirələr seçki kampaniyalarının əsas mövzularından birinə çevrilir, sağ populist qüvvələrin mövqeləri güclənir, bəzi ölkələrdə xarici vətəndaşlara qarşı dözümsüzlük halları artır. Eyni zamanda, miqrantların yerləşdirilməsi və sosial təminatı ilə bağlı yerli icmaların narazılığı da siyasi müstəviyə keçir. Fransa və başqa bəzi ölkələrdə bu məsələ hökumətlərin siyasi gündəliyinə birbaşa təsir göstərir.

Burada əsas ziddiyyət Avropanın bəyan etdiyi humanitar prinsiplərlə real siyasi davranışları arasındadır. Bir tərəfdən insan ləyaqətinin və sığınacaq hüququnun qorunmasından danışılır, digər tərəfdən sərhəd nəzarətinin sərtləşdirilməsi, miqrantların saxlanılması və geri qaytarılması istiqamətində tədbirlər genişləndirilir. Deməli, Avropa miqrasiya problemini yalnız təhlükəsizlik məsələsi kimi deyil, həm də insan hüquqları, sosial ədalət və dövlətlərin məsuliyyət bölgüsü kontekstində həll etməlidir. Əks halda, bu problem İttifaq daxilində siyasi parçalanmanı daha da dərinləşdirə bilər.

İnsan hüquqları məsələsində Avropa ilk növbədə özünə nəzər salmalıdır

Müasir dünyada gedən qlobal ideoloji mübarizənin mühüm istiqamətlərindən biri insan hüquq və azadlıqları məsələsidir. Təəssüf ki, bəzi beynəlxalq təşkilatlar və ayrı-ayrı Avropa dövlətləri bu mövzudan siyasi təzyiq vasitəsi kimi istifadə etməyə çalışırlar. Xüsusilə Fransa və onunla eyni mövqedən çıxış edən bəzi dairələrin Azərbaycana münasibətdə sərgilədiyi yanaşma bu baxımdan hər zaman diqqət çəkib. Ölkəmizə qarşı insan hüquqlarının pozulması ilə bağlı səsləndirilən ittihamların bir çoxu siyasi qərəzlilikdən və ikili standartlardan qaynaqlanıb. Halbuki həmin dairələr başqalarına qiymət verməzdən əvvəl öz ölkələrində baş verən hadisələrə diqqət yetirməlidirlər. Məsələn, Fransada polis zorakılığı ilə bağlı faktlar bu ölkənin insan hüquqları sahəsində ciddi problemlərinin olduğunu göstərir. “Reuters” agentliyinin 10 oktyabr 2026-cı il tarixli araşdırmasına görə, Fransada məktəb şəraiti ilə bağlı tələbə etirazları zamanı polis müdaxilələri nəticəsində xəsarət alanlarla əlaqədar 28 hadisə sənədləşdirilib. Bu hadisələrdən 24-ü polisə nəzarət edən daxili qurum tərəfindən araşdırılır. Məlumatda 14 yaşlı yeniyetmənin gözyaşardıcı qumbara ilə üz nahiyəsindən ağır yaralanması, 15 yaşlı yeniyetmənin isə səs-küylü qumbaranın partlaması nəticəsində əlini itirməsi kimi ağır hadisələr qeyd olunur. Fransa daxili işlər naziri araşdırma müddətində səs-küylü qumbaralardan istifadənin müvəqqəti dayandırıldığını açıqlayıb.

Bütün bunlar göstərir ki, insan hüquqları məsələsi heç bir dövlətin siyasi maraqlarına uyğun şəkildə şərh edilə bilməz. Hüquq və azadlıqlar universal dəyərlərdir və onların müdafiəsi selektiv yanaşma deyil, obyektivlik tələb edir. Azərbaycan öz suveren hüquqları, milli qanunvericiliyi və beynəlxalq öhdəlikləri çərçivəsində müstəqil siyasət yürüdür. Fransanın və digər Avropa dairələrinin ölkəmizə qarşı əsassız ittihamlar səsləndirməsi isə onların öz daxilindəki problemləri kölgədə qoymaq istçyindən qaynaqlanır. Avropa öz ərazisində baş verən pozuntulara eyni tələbkarlıqla yanaşmalıdır. Demokratiya və insan hüquqları siyasi təzyiq aləti deyil, hamı üçün eyni meyarlarla tətbiq edilməli olan fundamental prinsiplərdir.

P.İSMAYILOV

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressİnformMMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

1 illik abunə - 158,40 AZN
6 aylıq abunə - 79,20 AZN



Azərbaycan Respublikası Media və Yayım Şurası

Xəbər naminə risk...

Media və Yayım Şurasından jurnalistlərə hücumlarla bağlı BƏYANAT

Azad informasiya, təhlükəsiz jurnalist fəaliyyəti və obyektiv xəbər mühiti demokratik cəmiyyətin əsas dayaqlarındandır. Ancaq jurnalistə qarşı zorakılıq yalnız bir media nümayəndəsinin hüquqlarının pozulması deyil, həm də minlərlə insanın həqiqəti öyrənmək imkanına yaradılan maneədir. İnformasiya əsrində yaşadığımız üçün bir hadisə baş verən kimi cəmiyyət onun təfərrüatlarını bilmək, nələrin yaşandığını anlamaq, rəsmi mövqelərlə yanaşı, hadisənin real mənzərəsini görmək istəyir. Məhz bu məqamda medianın üzərinə düşən məsuliyyət daha da artır.

Lakin bir həqiqət var: informasiya hüququ yalnız xəbərin yayımlanması ilə təmin olunmur. Bunun üçün jurnalist hadisə yerinə sərbəst gedə bilməli, çəkiliş aparmalı, sual verməli, faktları araşdırmalı və əldə etdiyi məlumatı ictimaiyyətə çatdırarkən təhlükəsizliyinə əmin olmalıdır.

Cəmiyyətin informasiya hüququ necə qorunmalıdır?

Qeyd edək ki, jurnalistlərin peşə fəaliyyəti zamanı fiziki təzyiqlərlə üzləşməsi bir çox ölkədə baş verən haldır. Son günlər ölkəmizdə qeydə alınan iki hadisə də bu məsələyə yenidən diqqət çəkib. Əvvəlcə 225 nömrəli məktəbdə baş verən hadisəni işıqlandırmağa çalışan televiziya əməkdaşlarının hücuma məruz qalması, daha sonra APA əməkdaşının yanğın hadisəsini çəkərkən döyülməsi medianın hadisə yerlərində təhlükəsizliyi məsələsini yenidən gündəmə gətirib.

Məlumdur ki, hər iki halda jurnalistlər ictimai maraq doğuran hadisələri işıqlandırmaq üçün peşə vəzifələrini yerinə yetirirdilər. Ancaq qarşılaşdıqları münasibət sual doğurur: cəmiyyətin məlumat almaq hüququnu təmin etməyə çalışan media nümayəndələri nə üçün özləri müdafiəyə ehtiyac duyulan tərəfə çevrilirlər?

Mühüm bəyanat...

Media və Yayım Şurası jurnalistlərə edilən hücumlarla bağlı bəyanat yayıb. Bəyanatda qeyd olunub ki, son zamanlar media nümayəndələrinin hadisə yerlərində çəkiliş apararkən hücuma məruz qalması, onlara qarşı fiziki zorakılıq tətbiq edilməsi və peşə fəaliyyətlərinə maneələrin yaradılması ciddi narahatlıq doğurur: "Jurnalistlərin təhlükəsizliyini təhdid edən bu cür hərəkətlər eyni zamanda cəmiyyətin ictimai əhəmiyyətli hadisələr barədə məlumat almaq hüququna müdaxilədir".





Bəyanatda həmçinin qeyd edilib ki, "Media haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinə əsasən jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə edilməsi, onlara təzyiq göstərilməsi və təqib olunması yolverilməzdir:

"Azərbaycan Respublikası Media və Yayım Şurası jurnalistlərə qarşı zorakılıq və onların qanuni peşə fəaliyyətinə maneə yaradılması hallarını qətiyyətlə qınayır, baş vermiş hadisələrin operativ, hərtərəfli və obyektiv araşdırılacağına əminliyini ifadə edir, hər kəsi media nümayəndələrinin qanuni fəaliyyətinə hörmətlə yanaşmağa və onların peşə vəzifələrini təhlükəsiz, sərbəst və maneəsiz yerinə yetirmək hüququna riayət etməyə çağırır".

Jurnalistə hücum cəmiyyətin informasiya hüququna hücumdur...

Əslində, məsələnin mahiyyəti çox sadədir. Jurnalist hadisə yerinə kiminsə şəxsi marağına xidmət etmək üçün deyil, cəmiyyətin məlumat almaq hüququnu təmin etmək üçün gedir. Bu hüquq yalnız xoş xəbərlərə, rəsmi tədbirlərə və problemsiz hadisələrə aid deyil. Əksinə, faciələrin, qəzaların, yanğınların, ictimai narazılıq doğuran olayların işıqlandırılması medianın ən mühüm funksiyalarından biridir.

225 nömrəli məktəbdə baş verən faciə də, Nizami rayonundakı yanğın da ictimaiyyətin məlumat almaq istədiyi hadisələr idi. Hər iki halda jurnalistlərin işi məlumat toplamaq və onu cəmiyyətə çatdırmaq olub. Media və Yayım Şurasının bəyanatı bu baxımdan mühüm institusional mövqedir. Amma indi əsas gözlənti bəyanatda səslənən prinsiplərin praktik nəticələrə çevrilməsidir.

Yeganə BAYRAMOVA

Tərbiyə üsulu ilə psixoloji təzyiq arasındakı incə xətt



Uşaq bağçalarında vəziyyət...

Uşağın ilk sosial mühiti sayılan bağça onun gələcək şəxsiyyətinin formalaşmasında mühüm rol oynayır. Lakin bəzən sevgi, qayğı və inkişaf məkanı olmalı olan bu müəssisələr uşaqlar üçün qorxu, gərginlik və psixoloji təzyiq mənbəyinə çevrilir. Zaman-zaman istər özəl, istərsə də dövlət bağçalarında uşaqlara qarşı kobud davranış, emosional təzyiq halları ilə qarşılaşırıq. Bəs böyüklərin adi intizam tədbiri hesab etdiyi bu davranışlar uşağın psixologiyasında hansı izləri buraxır?

Bağça qorxu yox, güvən ünvanı olmalıdır

Uşaq bağçaya yalnız vaxt keçirmək, oyun oynamaq və ya ilkin biliklər əldə etmək üçün getmir. O, burada valideynindən kənarda ilk sosial münasibətlərini qurur, paylaşmağı, münaqişələri həll etməyi və öz hisslərini ifadə etməyi öyrənir. Başqa sözlə, bağça uşağın sosial və emosional inkişafında ailədən sonra mühüm mərhələlərdən biridir.

Lakin bu mühitdə uşağın qarşılaşdığı münasibət heç də həmişə sağlam olmur. Tərbiyəçinin yüksək səslə danışması, uşağı digər uşaqların qarşısında utandırması, yemək yemədiyinə görə danlaması, ağladığı üçün cəzalandırması və ya qorxutması bəzən gündəlik davranış kimi qəbul edilir. Ən narahatedici məqam isə bu cür münasibətlərin bəzi hallarda tərbiyə üsulu adı altında normallaşdırılmasıdır. Halbuki uşaq böyüklərin davranışını özünə qarşı münasibətin göstəricisi kimi qəbul edir. Davamlı şəkildə danlanan, alçaldılan və qorxudulan uşaq üçün bağça zamanla öyrənmə və əyləncə məkanından təhlükə hiss etdiyi bir yerə çevrilə bilər.

Aqressiyanın arxasında nə dayanır?

Cəmiyyətdə aqressiv uşaqlarla bağlı tez-tez eyni fikirləri eşidirik: "Çox ərköyündür", "Valideyn sözünə baxmır", "Tərbiyəsi yoxdur". Ancaq uşağın aqressiv davranışının arxasında bəzən böyüklərin diqqət yetirmədiyi daha dərin emosional səbəblər dayanır.

Psixoloji təzyiqə məruz qalan uşaq yaşadığı qorxu, narahatlıq və narazılığı hər zaman sözlə ifadə edə bilmir. O, hisslərini qışqırmaqla, əşyaları atmaqla, yaşıdlarını vurmaqla, tez-tez ağlamaqla və ya hər şeyə etiraz etməklə büruzə verə bilər. Burada vacib məqam odur ki, aqressiya həmişə uşağın xarakterindəki mənfi xüsusiyyətin göstəricisi deyil. Bəzən bu, onun yaşadığı emosional çətinliyin görünən tərəfidir.

Uşaq bağçada daim sərt münasibətlə qarşılaşırsa, zamanla öyrəndiyi davranış modelini başqa münasibətlərə də daşıya bilər. Çünki uşaqlar yalnız deyilənləri deyil, gördüklərini də təqlid edirlər. Böyük insan problemi qışqırmaqla həll edirsə, uşaq da münaqişə zamanı eyni üsula əl ata bilər.

Səssiz uşaqlar xoşbəxt sayılır?

Bağçalarda intizam dedikdə bəzən bütün uşaqların sakit oturması, danışmaması və deyilən hər şeyi mübahisəsiz yerinə yetirməsi nəzərdə tutulur. Halbuki uşağın sakitliyi onun psixoloji rahatlığının göstəricisi olmaya bilər. Bəzi uşaqlar qorxduqları üçün susur, öz fikirlərini bildirməkdən çəkinir, səhv etməkdən həddindən artıq narahat olur. Tərbiyəçinin narazılığından ehtiyat edən uşaq hətta ehtiyaclarını söyləməyə belə cəsarət etməyə bilər. Belə uşaqlar zahirən problem yaratmayan, qaydalara əməl edən və sakit görünən uşaqlardır. Ancaq onların daxili dünyasında narahatlıq, özünəinamın azalması və qəbul edilməmək qorxusu formalaşa bilər. Bu səbəbdən bağçada yalnız aqressiv davranış göstərən uşaqlara deyil, həddindən artıq qapanan, ünsiyyətdən qaçan və özünü ifadə etməkdə çətinlik çəkən uşaqlara da diqqət yetirilməlidir.

Dövlət və özəl bağça: məsuliyyət hər yerdə eynidir

Təhsil üzrə ekspert Elçin Əfəndi "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, uşağa münasibətdə psixoloji təhlükəsizlik məsələsi bağçanın dövlətə, yoxsa özəl sektora aid olmasından asılı deyil: "Müasir təmirli otaqlar, bahalı oyuncaqlar, xarici dil dərsləri və geniş proqramlar uşağın emosional rifahına zəmanət vermir. Eyni zamanda, dövlət bağçalarında çalışan bütün pedaqoqları, yaxud özəl müəssisələri eyni cür qiymətləndirmək də doğru olmaz. Burada əsas məsələ müəssisənin adı və statusu deyil, işçilərin peşəkarlığı, davranış mədəniyyəti, uşaqlarla ünsiyyət bacarığı və rəhbərliyin nəzarət mexanizmidir.

Bağçalarda psixoloji təhlükəsizlik yalnız qaydalar və təlimatlarla təmin edilə bilməz. Pedaqoqların mütəmadi psixoloji-pedaqoji təlimlərə cəlb olunması, valideynlərin müraciətlərinə ciddi yanaşılması, uşaqların davranış dəyişikliklərinin izlənilməsi və mümkün pozuntuların araşdırılması vacibdir. Uşağa qarşı zorakılığın qarşısının alınması yalnız bir tərbiyəçinin deyil, bütün müəssisənin məsuliyyətidir".

Tərbiyəçinin yorğunluğu uşağın qorxusuna çevrilməməlidir

Ekspertin sözlərinə görə, bağçalarda psixoloji mühitdən danışarkən pedaqoqların iş şəraitini də unutmaq olmaz: "Çoxsaylı uşaqlarla işləmək, yüksək məsuliyyət, emosional gərginlik və bəzən yetərsiz əmək şəraiti tərbiyəçilərin psixoloji vəziyyətinə təsir göstərə bilər. Lakin heç bir yorğunluq, stress və ya iş yükü uşağa qarşı kobud davranışa bəraət qazandırmır. Əksinə, keyfiyyətli məktəbəqədər təhsil sistemi təkcə uşaqların deyil, onlarla işləyən mütəxəssislərin də psixoloji rifahını nəzərə almalıdır. Pedaqoq öz emosiyalarını idarə etməyi bacarmalı, uşağın yaş xüsusiyyətlərini anlamalı və çətin davranışlara cəza ilə deyil, düzgün pedaqoji yanaşma ilə cavab verməlidir. Çünki uşaqla işləmək sadəcə qaydaları öyrətmək deyil, onun dünyasını anlamaq bacarığıdır".

Uşağı susdurmaq yox, dinləmək lazımdır

Psixoloq Elnur Rüstəmov isə bildirib ki, uşağa qarşı davamlı qışqırmaq, təhqir etmək, hədələmək və utandırmaq onun emosional təhlükəsizlik hissinə zərər verə bilər: "Belə münasibət uşağın özünəinamına, insanlara güvənməsinə, emosiyalarını tənzimləmək bacarığına və sosial münasibətlərinə mənfi təsir göstərə bilər. Fikrimcə, bağçalarda ən ciddi problemlərdən biri uşağın davranışına yalnız böyüklərin rahatlığı prizmasından yanaşılmasıdır. Uşaq ağlayırsa, susdurulmalıdır, yemək yemirsə, məcbur edilməlidir, etiraz edirsə, itaətə gətirilməlidir. Halbuki hər davranışın arxasında müəyyən ehtiyac və emosional səbəb ola bilər".

Böyüklərin adi saydığı davranışlar uşaqlara nələr yaşadır?

Valideynlərə vacib tövsiyə...

Psixoloq qeyd edib ki, uşağın aqressiv davranışına aqressiya ilə cavab vermək problemi həll etmir, əksinə, onun öyrəndiyi yanlış davranış modelini möhkəmləndirə bilər: "Belə hallarda ilk növbədə uşağın nə hiss etdiyini anlamaq, onu sakitləşdirmək, sərhədləri aydın və mehriban şəkildə izah etmək lazımdır.

Valideynlərə tövsiyəm budur ki, uşaqlarının davranışındakı dəyişiklikləri kiçik məsələ hesab etməsinlər. Bağça seçərkən yalnız tədris proqramına və şəraitə deyil, tərbiyəçilərin uşaqlarla necə danışdığına, münaqişələri necə həll etdiyinə və uşaqların həmin mühitdə özlərini nə dərəcədə rahat hiss etdiyinə də diqqət yetirsinlər. Şübhəli və ya təsdiqlənmiş zorakılıq halları ilə qarşılaşdıqda isə məsələni müəssisə rəhbərliyi və aidiyyəti qurumlar qarşısında qaldırmaqdan çəkinməsinlər.

Unutmayaq ki, uşağın bu gün bağçada eşitdiyi sərt söz sabah onun özünə və başqalarına münasibətinə çevrilə bilər. Onlardan sakit, anlayışlı və mərhəmətli insanlar olmalarını istəyiriksə, ilk növbədə özümüz onlara bu münasibətin nümunəsini göstərməliyik. Çünki bağçanın uğuru uşaqların nə qədər səssiz oturması ilə deyil, oradan nə qədər xoşbəxt, güvənli və özünəinamlı ayrılması ilə ölçülməlidir".

Yeganə BAYRAMOVA

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4385
Sifariş: 1476
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova